# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yeni Azərbaycan Partiyası və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib




5


SƏS

№ 202 (7370)

4 noyabr 2025-ci il.
Qiymıəti 60 qəpik


# Elm məbədi 80 illik tarixi yolda



*Prezident İlham Əliyev: "Azərbaycan alimləri bundan sonra da ölkəmizin uğurlu inkişafına öz töhfələrini verəcəklər"*

2

# Fələstinin gələcəyi



12

## Zəfər tariximizin bir addımlığında!




4

## AXCP və Müsavatın fəaliyyətlərinin dayandırılması ictimai tələbdir



14

## Maska effekti - insanlar niyə sosial şəbəkədə özünü olduğundan fərqli göstərir?



13

## Biruşaqlı ailələr artır: cəmiyyət ərköyün nəsil yetişdirirmi?



8

## İctimai nəqliyyat qədər maraqlı BİZlər...



8

# Elm məbədi 80 illik tarixi yolda





Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə AMEA-nın 80 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi ölkə başçısının elmə verdiyi yüksək dəyərlərdəndir. Bu sərəncam Azərbaycan elminə, alimlərinə, ziyalılarına

## *Prezident İlham Əliyev: "Azərbaycan alimləri bundan sonra da ölkəmizin uğurlu inkişafına öz töhfələrini verəcəklər"*





verilən böyük dəyərin, dövlətimizin intellektual qüvvələrə olan hörmət və etimadının ifadəsidir. Bu elm məbədi yarandığı gündən respublikanın elmi-intellektual potensialının formalaşdırılmasında, elmi düşüncənin inkişafı istiqamətində müstəsna xidmətlərə malikdir.

"Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır. Bu illər ərzində biz müxtəlif ictimai-siyasi quruluşlarda yaşasaq da, Azərbaycan hər zaman öz elminin inkişafına böyük diqqət yetirirdi. Sirr deyil ki, Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə Akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutu yaradıldı, elmin inkişafına böyük vəsait ayrılırdı. Faktiki olaraq bu siyasət müstəqillik illərində də davam etdirilirdi. Ulu Öndərin təşəbbüsü ilə keçən əsrin 70-ci illərindən başlayaraq yüz minlərlə Azərbaycan gənci o vaxt Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərilmişdir və beləliklə, ölkəmizdə intellektual potensial daha da güclənmişdir. Eyni siyasəti biz müstəqillik illərində də aparırıq. Bu gün də on minlərlə Azərbaycan gənci artıq dünyanın aparıcı ali məktəblərinə ezam olunur. Onların böyük əksəriyyəti oxuyub Vətənə qayıdırlar və beləliklə, ölkəmizin inkişafına öz dəyərli töhfələrini verirlər". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqva çıxışı zamanı bildirib.

Bildiyimiz kimi, Azərbaycan Milli Elmlər Akademiyası 1945-ci ildə yaradılmışdır. Bu dövr ərzində Elmlər Akademiyası nəhəng bir təşkilata, fundamental tədqiqatların əsas mərkəzinə çevrilmişdir. Akademiyanın yaranması əsrlərdən bəri Azərbaycanda elmi təfəkkürün formalaşmasının təbii nəticəsi olmuşdur. Maddi mədəniyyət abidələri və bir çox elmi mənbələr göstərir ki, hələ qədim Azərbaycanda riyaziyyat, astronomiya, tibb, fəlsəfə və başqa elmlər yüksək səviyyədə inkişaf etmişdir. Ötən 80 il ərzində Akademiyada əldə edilmiş elmi nəticələr, çoxsaylı ixtiralar, hazırlanmış yüksəkixtisaslı kadrlar bu gün müstəqil Azərbaycan Respublikasının demokratik və hüquqi dövlət kimi formalaşmasında həlledici rol oynamışdır. "Müstəqilliyin ilk illəri çox ağır idi, faciəvi idi. O vaxt məhz Heydər Əliyevin qətiyyəti, iradəsi, xalqa olan bağlılığı bizi böyük bəlalardan qurtara bilmişdir. O da çox böyük göstəricidir ki, onun hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları ilə, Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz 1993-cü ildə Milli Elmlər Akademiyasında olmuşdur", - deyə bildirən Azərbaycan Prezidenti bildirib ki, O, bir daha müstəqil Azərbaycanın, yəni, yeniləşən Azərbaycanın prioritetlərini açıq şəkildə bəyan etmişdir,: "Düzdür, o vaxt bizim maliyyə imkanlarımız çox məhdud idi, demək olar ki, yox idi, xəzinə boş idi. Azərbaycan böyük humanitar fəlakətlə üzüzə idi. Bir milyondan çox qaçqın və məcburi köçkün, torpaqlarımızın işğal altına düşməsi və çox böyük iqtisadi, maliyyə çətinlikləri. Amma buna baxmayaraq, yenə də Akademiyanın işinə, Akademiyanın qorunmasına, alimlərin fəaliyyəti üçün vəsait ayrılırdı."

### "SON ON İL ƏRZİNDƏ AZƏRBAYCAN ELMİNƏ AYRILAN VƏSAİT İKİ DƏFƏDƏN ÇOX ARTMIŞDIR"

Müstəqillik dövründə Ulu Öndərin hakimiyyətə qayıtması ilə ölkədə hərc-mərcliyə son qoyulması, sabitliyin təmin edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması, müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi ölkənin inkişafına yeni yollar açmış oldu. Dahi rəhbərin başladığı işi Prezident İlham Əliyev müasir dövrün çağırışlarına uyğun olaraq davam etdirir.

Həm Ulu Öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının tarixində və taleyində mühüm rol oynayıblar. AMEA-nın dövlət səviyyəsində ilk dəfə yubileyi məhz Ümummilli Liderin təşəbbüsü ilə 1975-ci ildə keçirilib. "Təbii ki, illər keçdikcə, Azərbaycan inkişaf etdikcə bu vəsait daha böyük həcmdə ayrılır. Son on il ərzində Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artmışdır. Mənim prezidentlik dövrümdə də bu istiqamətdə, yəni, Azərbaycan elminin inkişafına göstərilən diqqət Ulu Öndərin siyasətinə uyğun şəkildə aparıldı. Bir çox addımlar atıldı. Akademiyanın maddi-texniki bazası möhkəmləndirilmişdir və burada yerləşən, bu akademiya şəhərciyində yerləşən binaların təmiri aparıldı. Buraya, elmə aidiyyəti olmayan, akademiyanın bəzi binalarını zəbt etmiş qurumlar buradan çıxarıldı", - deyən Prezident bildirib ki, yeni böyük elmi kitabxana inşa edilmişdir.

Milli Ensiklopediya üçün yeni bina inşa edilmişdir. Elmi-tədqiqat institutlarının, dediyim kimi, təmiri və avadanlıqlarla təchizi təmin edilmişdir. Elm Fondu hələ 2009-cu ildə yaradılmışdır, "O vaxt bu Fondun yaradılmasının əsas məqsədi Azərbaycan alimlərinə maddi dəstək vermək, elmin inkişafına qrantlar çərçivəsində təkan vermək idi. Elmin inkişafı üzrə Milli Strategiya qəbul edilmişdir. "Elm haqqında" Qanun qəbul edilmişdir, Dövlət Proqramı qəbul edilmişdir. Yəni, görülmüş bütün işləri sadalamaq üçün çox vaxt lazımdır. Sadəcə olaraq, bunu bildirməliyəm ki, bütün başqa sahələrdə olduğu kimi, bu istiqamətdə də Heydər Əliyev siyasəti davam edir, yaşayır, yeni formalarla zənginləşir".

*Ardı Səh. 3*

# Elm məbədi 80 illik tarixi yolda





Əvvəli-Səh-2

### “BİZİM QƏDƏR PARLAQ, TAM VƏ MÜTLƏQ QƏLƏBƏ QAZANAN İKİNCİ ÖLKƏ OLMAMIŞDIR”

Zəngin bir yol keçmiş akademiya ötən müddət ərzindəki səmərəli fəaliyyətinin əsasında elmin zamanın tələblərinə uyğun prioritet problemlərinin araşdırılması, ən müxtəlif elmi istiqamətlər üzrə yüksək hazırlıqlı kadrların yetişdirilməsi, elmi məktəblərin formalaşdırılması və nüfuzlu beynəlxalq elm qurumları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi prinsipləri dayanmışdır. Bu gün də Akademiya elm sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsində fəal iştirak edir, sosial-humanitar tədqiqatlarla cəmiyyətin yeni biliklərə yiyələnməsi və elmi-mədəni səviyyəsinin yüksəldilməsi işinə töhfələr verir.

Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev 10 il bundan əvvəl - Akademiyanın 70 illiyində alimlər qarşısında çıxış edərək ölkə qarşısında duran vəzifələrlə yanaşı, elmin inkişafına da öz dəstəyini göstərmişdir. ”Son 10 il ərzində həm dünyada, həm Azərbaycanda köklü dəyişikliklər baş vermişdir”, – deyən dövlətimizin başçısı diqqətə çəkib ki, dünya iqtisadiyyatı tamamilə dəyişmiş, dünyada gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qaldırılması göz önündədir: ”Azərbaycana gəldikdə, son 10 il bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur. Əsas vəzifə - torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir. Bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq. Biz bir neçə gündən sonra şanlı Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilir. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır”.

### “AZƏRBAYCAN ELMİ İCTİMAİYYƏTİ ÜÇÜN ÇOX BÖYÜK FƏALİYYƏT MEYDANÇASI YARADILIR”

Azərbaycan möhtəşəm tarixi gününün - 8 Noyabr Zəfər gününün beşinci ildönümünü qeyd edəcəkdir. Ermənistanın 30 ilə yaxın davam etmiş hərbi təcavüzünə son qoyulması böyük salnamə tariximizdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli



Ordumuzun torpaqlarımızı azad etməsi Zəfər tariximizi yazdı, həm də bu qələbə beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsi idi. BMT Təhlükəsizlik Şurasının on illərlə kağız üzərində qalmış qətnamələrini Azərbaycan icra etmiş oldu. İllərlə görülən işlər, həyata keçirilən tədbirlər artıq öz sözünü demişdir. 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının müntəzəm xarakter alması İkinci Qarabağ müharibəsinin başlanmasına səbəb oldu. Dövlət başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevdən ”Hücum!” əmrini alan Azərbaycan Ordusu qələbə əzmi ilə irəlilədi. 200 ildən çox davam edən etnik təmizləmə, soyqırımı siyasətini həyata keçirmiş, xalqımız tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş insanların qisası döyüş meydanında alınırdı. Hər gün müharibənin getdiyi ağır döyüşlərin nəticəsində qələbə soraqları alırdıq: işğaldan adad olunan kənd, qəsəbə və şəhərlər.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı və bu mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası idi. İmzalanmış üçtərəfli Bəyanatla ölkəmizin qazandığı tarixi Qələbə bir daha təsdiqini tapdı. Ermənistan məğlubiyyət sənədinə imza ataraq, qısa zaman kəsiyində digər şəhər və rayonlarımızdan çıxması barədə öhdəlik götürdü. Beləliklə, uzun illər işğal altında qalan Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan Azərbaycana təhvil verildi.

Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu.

Prezident İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsində ordumuza göstərilən diqqət sayəsində Silahlı Qüvvələrimiz müasir silah-sursat, döyüş texnikası iiilə təchiz olunması bizi Zəfərə doğru apardı. Azərbaycan əsgəri yalnız öz gücü və qüvvəsinə güvənərək düşməni işğal olunmuş torpaqlardan qovmaqla ərazi bütövlüyümüzü bərpa etməyə qadir olduqlarını əzmkarlıqla nümayiş etdirdi. Zəfər tarixini yazmış Azərbaycan Ermənistana sarsıdıcı zərbə vurmaqla ”məğlubedilməz erməni ordusu" mifini dağıtdı.

44 günlük Vətən müharibəsinin reallıqları bir daha təsdiqlədi ki, Azərbaycan Prezidenti İlham Əliyev həqiqətən də böyük siyasi xadim, strateqdir və hər bir məsələnin müdrikliklə həllinə nail olur. 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan ərazilərimizin azad olunması, münaqişənin bitməsi xalqımızın tarixinə qızıl hərflərlə Zəfərimizi yazdı.

İndi artıq müharibədən beş il ötür və Zəfər qazanmış Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru dirçəldir, həyat yenidən qaynayır. ”Bizim şanlı Vətən müharibəmiz. Bildiyiniz kimi, onun hər bir mərhələsi, hər bir günü öyrənilir, öyrənilib və bir çox beynəlxalq hərbi ali məktəblərində də tədqiq edilir. O cümlədən pilotsuz uçuş aparatlarının tətbiqi. Müharibədə məhz birinci biz bunu tətbiq etmişik. Bu gün müasir müharibələri bunsuz təsəvvür etmək mümkün deyil. Yəni, bunun təməlini biz qoymuşuq və bu gün bu istiqamətdə Azərbaycanda çox böyük işlər görülür. Biz bu məhsulları həm xarici bazarlardan tədarük edirik, eyni zamanda, özümüz də bir çox növdən ibarət pilotsuz uçuş aparatlarını istehsal etməyə başlamışıq və bunu davam etdirəcəyik. Burada da təbii ki, Azərbaycan elmi ictimaiyyəti üçün çox böyük fəaliyyət meydançası yaradılır”, - deyən Prezident diqqətə çəkib ki, Mən bütövlükdə bildirmək istəyirəm ki, elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır: ”Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər.

Çünki bu gün bizim elmimizin praktik nəticələri olmalıdır. Təkcə elmi əsərlərdə yox, həyatda və iqtisadiyyatın sürətli inkişafını nəzərə alaraq, əlbəttə ki, burada əlaqələndirmə, uzlaşma yüksək səviyyədə olmalıdır. Əminəm ki, bu sözlərdən sonra bizim dövlət qurumlarımız Azərbaycan alimləri ilə daha fəal işləyəcəklər”.

***Zümrüd BAYRAMOVA***




# Zəfər tariximizin bir addımlığında!

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beş il əvvəl noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə müsahibə verərkən Ona ünvanlanan "Hazırda Dağlıq Qarabağdakı müharibənin altıncı həftəsi başlayır. Cəbhədə hazırda vəziyyət necədir?" sualını cavablandıraraq belə demişdir: "Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib.***

Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik".

Artıq müharibənin 39-cu günü idi. "Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad edib". Bu barədə Prezident İlham Əliyev özünün tviter hesabında bildirmişdi.

Döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, iki ədəd T-72 tankı, üç ədəd D-30 topu, "Zastava M-55" zenit qurğusu, bir ədəd taktiki PUA-sı, üç ədəd hərbi yük maşını sıradan çıxarılmışdı. Ermənistan silahlı qüvvələrinin bir ədəd "M-55" zenit qurğusu dəqiq atəşlə vurulmuşdu. Ermənistan ərazisindən Zəngilan istiqamətindəki bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı alınmışdı. İşğalçı ordunun 5-ci dağıtıcı alayının xeyli sayda şəxsi heyəti və döyüş texnikası məhv edilmişdi. Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 4-dək 91 mülki şəxs həlak olmuş, 405 nəfər xəsarət almış, 2734 ev, 98 çoxmənzilli yaşayış binası və 500 mülki obyekt yararsız vəziyyətə düşmüşdü.

## "BİZ CAVAB VERMƏLİ VƏ ÖZÜMÜZÜ MÜDAFİƏ ETMƏLİ OLDUQ"

4 noyabr 2020-ci ildə Azərbaycan artıq möhtəşəm tarixi gününün - 8 Noyabr Zəfər günü ərəfəsində idi. Məğrur, qalib Azərbaycan xalqı Zəfər tarixinin beşinci ildönümünü qeyd edəcəkdir. Xalqımız Vətən müharibəsində 44 gün ərizində qələbələr qazanaraq, Zəfərə doğru addımladı və tarixi qələbəni əbədiləşdirdi. Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə silinməz bir gün yazdı.

Müharibənin gedişində məğlubiyyəti ilə barışmayan ermənilər dinc insanlara qarşı terror törədirdilər. Bərdədə, Gəncədə yaşanılanlar hər kəsin yaddaşındadır. Humanitar atəşkəs elan olunsa da 2020-ci ilin noyabrın 5-i saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhəri, rayonun Səhləabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tuturdu. Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülürdü.

Cənab Prezident müsahibəsində bildirdiyi kimi, bu atəşkəslərin işləməməsinin səbəblərindən biri ondan ibarət idi ki, Ermənistan artıq bizim tərəfimizdən azad edilmiş əraziləri geri almağa cəhd göstərirdi: "Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raketlə hücum etdilər. Onlar bunu iki dəfə etdilər. Lakin birinci dəfə oktyabrın 10-da, atəşkəs elan olunandan dərhal sonra etdilər və bunun nəticəsində 10 mülki şəxs həlak oldu, onlarla adam yaralandı. Beləliklə, onlar birinci atəşkəsi kobud şəkildə pozdular". İkinci atəşkəs də elan olunan vaxtdan təxminən 5 dəqiqə sonra ermənilər tərəfindən bu pozuldu. Növbəti atəşkəsdə isə Bərdəyə hücum etməklə pozdular. 21 nəfər mülki şəxs qətlə yetirildi, 70 nəfər isə yaralandı. "Beləliklə, hər 3 dəfə bu, Ermənistanın bizə qarşı məqsədli şəkildə təcavüzkar hücumu idi və biz cavab verməli və özümüzü müdafiə etməli olduq", - deyə Prezident bildirmişdi.

Azərbaycan Ordusu 2020-ci ilin sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifini darmadağın etdi. Azərbaycan beynəlxalq hüquq prinsiplərini rəhbər tutaraq uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirərək, dünyanı təəccübləndirən müharibədə 30 illik işğala son qoymuş oldu.

## MÜNAQİŞƏNİN ƏDALƏTLİ HƏLLİ

Qeyd edək ki, 1994-cü ildə Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunsa da, ölkəmizin xoşməramlı səylərinə, rəsmi Yerevanı diplomatik vasitələrlə işğalçılıq siyasətindən çəkindirməyə yönələn addımlara baxmayaraq, münaqişə hələ də həll olunmamış qalırdı. 26 il atəşkəs rejimində yaşasaq da, Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul etsə də beynəlxalq hüququn normalarnı kobud şəkildə pozub. Bununla yanaşı, bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar. AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası səviyyəsində Ermənistanın işğalçılıq siyasətinə kəskin mənfi münasibət bildirilib.

## "BİZ BU QƏLƏBƏNİ HƏM PEŞƏKARLIQ, QƏHRƏMANLIQ HESABINA, EYNİ ZAMANDA, MİLLİ RUH HESABINA QAZANMIŞIQ"

Xatırladaq ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi ATƏT çərçivəsində başlamışdır. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul olunmuş qətnamələri Azərbaycan Respublikası və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqləmiş oldu. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi, qaçqın və köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırdı. Bu qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi.

Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atdı. Bu münaqişənin nizamlanması ilə bağlı danışıqlar beynəlxalq hüquq və normalar və bu çərçivədə qəbul edilmiş sənəd və qərarlar əsasında davam etdirildi. İllərlə davam edən danışıqlara baxmayaraq, Ermənistan təcavüzkar siyasətindən əl çəkmədi. Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. "Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarımızı işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb", - deyə Azərbaycan Prezidenti bildirib.

Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Prezident vurğuladığı kimi, "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyası və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib











***Noyabrın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Azərbaycan Milli Konservatoriyası ilə birgə təşkil etdiyi 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdən öncə rəssam-monumentalist Çingiz Abasovun "30 il və 44 gün" tablosunun təqdimatı olub.***



Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edən şanlı Zəfərimizin beşinci ildönümü münasibətilə təbrik edib. O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə elan edilmiş "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən keçirilən silsilə tədbirlər ölkəmizin müstəqil inkişaf yoluna, eləcə də möhtəşəm Zəfərimizin tarixi və ictimai-siyasi əsaslarına, yeni mərhələdə suveren Azərbaycanın qarşısında duran əsas hədəflərə nəzər salınması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tahir Budaqov vurğulayıb ki, müasir dövlətçilik tariximizin zirvə nöqtəsi - ən qürurverici məqamı olan möhtəşəm Zəfərimiz asanlıqla əldə olunmamışdır: "Müstəqillik dövründə ölkəmizə rəhbərliyi zamanı Ümummilli Lider Heydər Əliyev Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad olunmasını dövlət siyasətinin bir nömrəli məsələsi - strateji prioriteti kimi müəyyən etmişdir. Onun liderliyi ilə bu strateji hədəfə çatmaq üçün məqsədyönlü addımlar atılmış, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda ardıcıl işlər görülərək Azərbaycanı böyük Zəfərə aparan yolun əsası qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev bu siyasəti müasir dövrün çağırışları və reallıqlarına uyğun zənginləşdirərək müvəffəqiyyətlə davam etdirməklə, Ermənistanın təcavüzkar siyasətinə göz yuman bir sıra güc mərkəzlərinin ikili standartlar siyasətinə, beynəlxalq təşkilatların selektiv yanaşmasına, mürəkkəb geostrateji şəraitə baxmayaraq, Vətənin bütövlüyünü, tarixi ədaləti və milli ləyaqəti bərpa etmək uğrunda haqq mübarizəsini qələbə ilə başa vuraraq möhtəşəm Zəfərə nail olmuş, ata vəsiyyəti və xalqa vədini şərəflə yerinə yetirməklə Azərbaycanı Heydər Əliyevin görmək istədiyi kimi qalib, qüdrətli və əzəmətli dövlətə çevirmişdir".

YAP Sədrinin müavini bildirib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan bu gün regionun çoxtərəfli işbirliyi məkanına çevrilməsində maraqlı olmaqla beynəlxalq hüquq normalarına və milli maraqlara əsaslanan prinsipial mövqeyinə sadiqliyini əyani şəkildə nümayiş etdirir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin siyasəti konstruktiv xarakter daşımaqla regionun dialoq, əməkdaşlıq və inteqrasiya məkanına çevrilməsinə hədəflənmişdir ki, bu da sülh naminə etimad quruculuğunun həyata keçirilməsi baxımından olduqca böyük önəmə malikdir: "Dövlət başçısının qeyd etdiyi kimi: "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu". Bu gün yeni reallıqlar fonunda sülh müqaviləsinin imzalanması və kommunikasiyaların bərpası regional təhlükəsizlik kontekstində strateji gündəliyin önəmli tərkib hissəsidir".

Tahir Budaqov qeyd edib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına layiqli qayıdışının təmin edilməsi qarşıda duran çox mühüm hədəflərdəndir: "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsi Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyənləşdirilmişdir.

*Ardı Səh. 6*

# Yeni Azərbaycan Partiyası və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

Əvvəli-Səh-5



Bu gün həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilməklə müasir infrastruktur yaradılmaqdadır. Artıq Qarabağ və Şərqi Zəngəzurda mühüm yolnəqliyyat, enerji təminatı və digər infrastruktur layihələri gerçəkləşdirilmiş, onlarla yaşayış məntəqəsinin təməli qoyulmuş və bir sıra şəhər, kənd və qəsəbələrdə əhalinin yaşayışı təmin edilmişdir. Bütün bunlar dayanıqlı məskunlaşma və müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmini baxımından böyük əhəmiyyətə malikdir. Nəticə etibarilə, yüz minlərlə soydaşımızın yurd həsrətinə son qoyulması, onların ata-baba torpaqlarına qayıdışının təmin olunması mənəvi-siyasi və sosial-iqtisadi əhəmiyyətə malik olmaqla tarixi ədalətin təntənəsidir".

"Azərbaycan dövləti və xalqı mübariz Vətən övladlarının - ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda qəhrəmancasına döyüşərək Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış şəhidlərin əziz xatirəsini daim uca tutur. Müzəffər Ali Baş Komandanımızın 2020-ci il noyabrın 8-də





Şuşanın işğaldan azad olunması barədə müjdəni məhz Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı verməsi Vətənin bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna ali ehtiram nümunəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq" , - deyə YAP Mərkəzi Aparatının rəhbəri əlavə edib.

Tahir Budaqov söyləyib ki, Azərbaycan xalqının Zəfər salnaməsi – Qələbə dastanı təkcə tarixçilər və siyasətşünasların tədqiqat predmeti deyil: "Bu Zəfər həm də müstəsna mənəvi əhəmiyyətə malik olduğu üçün sənət adamlarının xüsusi diqqət mərkəzindədir. Möhtəşəm Qələbəmiz haqqında əsərlərin, o cümlədən rəsm əsərlərinin ərsəyə gətirilməsi və digər yaradıcılıq işləri bu tarixi hadisənin ictimai yaddaşda – milli təfəkkürdə əbədiləşdirilməsi baxımından çox önəmlidir. Ona görə də bugünkü tədbir çərçivəsində təqdimatını etdiyimiz rəssam-monumentalist Çingiz Abasovun "30 il və 44 gün" tablosu şanlı Qələbəmizin təbliği və xalqımızın vətənpərvərlik ruhunun gücləndirilməsi üçün əhəmiyyətlidir".

"Bu gün qalib Azərbaycan xalqı 8 Noyabr – Zəfər Gününü böyük iftixar və coşquyla qeyd edərək əzəli torpaqlarımızın işğaldan azad olunması və doğma yurd yerlərinə qayıdışın hədsiz sevincini yaşamaqdadır. Şübhə yoxdur ki, dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz birliyi sayəsində Azərbaycan bundan sonra da möhtəşəm nailiyyətlərə imza atmaqla yeni qələbələr qazanacaq, Vətənimizin hər bir guşəsində qürurla ucaldılan üçrəngli bayrağımız daim zirvələrdə əzəmətlə dalğalanacaqdır. Qalib Azərbaycanın sarsılmaz qüdrətinin ifadəsi olan 8 Noyabr - Zəfər Günü, həmçinin qarşıdan gələn 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr – Konstitusiya Günü münasibətilə partiyamızın bütün üzvlərini, böyük xalqımızı təbrik edir, hər birinizə möhkəm cansağlığı və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram. Yaşasın müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə!" ,- deyə YAP Sədrinin müavini vurğulayıb.

Çıxış edən Azərbaycan Milli Konservatoriyasının rektoru, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Kamilə Dadaş-zadə qeyd edib ki, hər bir xalqın tarixində elə əlamətdar gün var ki, onu "əsrə bərabər gün" hesab etmək olar: "Azərbaycan xalqının həyatında belə məqamlardan biri, heç şübhəsiz ki, 2020-ci ilin 8 noyabr gününə təsadüf edir. Lakin düşünürəm ki, öz tarixi əhəmiyyəti və mənəvi yükü etibarilə həmin günü bir əsrə deyil, "əsrlərə bərabər gün" adlandırmaq olar. Çünki həmin gün xalqımızın çoxəsrlik qəhrəmanlıq salnaməsinin yeni şanlı səhifəsi yazıldı və eyni zamanda, həmin gün əldə etdiyimiz tarixi Qələbə Azərbaycanın uzunmüddətli, möhkəm və dayanaqlı inkişaf yolunu təmin etdi. Beş il bundan öncə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə milli Ordumuzun misilsiz qəhrəmanlığı nəticəsində, şəhidlərimizin canı və qanı bahasına Azərbaycan torpaqlarının işğalına son qoyuldu, tarixi ədalət zəfər çaldı. Müasir hərb sənətinin ən parlaq səhifələrindən biri olan "Dəmir yumruq" əməliyyatı, təbii ki, tarix kitablarına fenomenal hadisə kimi daxil olacaq və mütəxəssislər tərəfindən araşdırılıb layiqincə dəyərləndiriləcək. Şübhəsiz ki, bu zaman digər mühüm amillərlə yanaşı, Zəfərimizi təmin edən bir faktorun da rolu qeyd olunacaq ki, bu da "xalq, iqtidar və ordu birliyi" formuludur. Qələbəmizin ideoloji təməlini təşkil etmiş bu formul Azərbaycan xalqının əzmini bir daha nümayiş etdirdi".

Rektor vurğulayıb ki, tarixi Zəfər Azərbaycanın perspektiv inkişaf yollarını da müəyyən etdi: "Qələbədən sonra Azərbaycan özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Prezident İham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən Böyük Qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri nəticəsində əzəli, qədim torpaqlarımız sürətlə və ən mütərəqqi üsullarla ucaldılan müasir yaşayış mərkəzlərinə çevrilir".

"Zəfərin beşinci ildönümündə tam əminliklə qeyd etmək olar ki, hazırda Azərbaycan beynəlxalq müstəvidə yalnız müharibənin qalibi kimi deyil, həm də regionda sülh, sabitlik və əməkdaşlığın əsas təşəbbüskarı və təminatçısı kimi qəbul olunur. Beynəlxalq səviyyədə qazandığımız nüfuz sayəsində ölkəmiz dünyada baş verən mürəkkəb proseslərdə fəal iştirak edir. Bu, yaşadığımız dövrün reallığıdır və bu reallığı hər kəs qəbul etmək məcburiyyətindədir", - deyə Kamilə Dadaş-zadə əlavə edib.

Ardı Səh. 7

# Yeni Azərbaycan Partiyası və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib



Əvvəli-Səh-6

Rektor bildirib ki, şanlı Qələbəmizin hər ildönümü bu taleyüklü tarixi hadisənin əhəmiyyətini, önəmini daha dərindən, bütün əzəməti ilə dərk etmək üçün imkan yaradır: "Bu gün Azərbaycan Milli Konservatoriyası kollektivinin tədbir iştirakçılarının diqqətinə təqdim edəcəyi konsert "Zəfərin sədası" adlanır. Düşünürük ki, bu adın böyük bir rəmzi mənası var. İllər ötəcək, qərinələr dəyişəcək, amma 2020-ci ildə Vətən müharibəsində əldə etdiyimiz Zəfər yenə də hər bir azərbaycanlının qəlbində əzəmətli bir əks-səda kimi səslənəcəkdir. Bu isə o deməkdir ki, Azərbaycan durduqca, Zəfərimiz əbədi qürur mənbəyimiz olaraq yaşayacaqdır".

Sonra tədbirdə şəhid İsmayıl Kərimlinin atası Ceyhun




Kərimov çıxış edib. "Bu gün biz Böyük Qələbəmizin 5-ci ildönümünü qeyd edirik. Artıq beş ildir ki, 30 ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımız işğaldan azad olunub, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Zəfər Günü möhtəşəm bir əsərdir və hər bir böyük əsər kimi bu Zəfərin də öz memarları var. Böyük Qələbəmizi qeyd edərkən Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasını və Onun xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışını xatırlayırıq. Məhz həmin tarixi qayıdış Zəfər salnaməmizin ilk səhifəsini yazdı. Elə o andan etibarən biz addım-addım tarixi Qələbəmizə doğru irəliləməyə başladıq", - deyən şəhid atası əlavə edib ki, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu böyük məsuliyyəti öz üzərinə götürərək xalq qarşısında and içdi və andına sadiq qalaraq Azərbaycanı tarixi Zəfərə qovuşdurdu.

Ceyhun Kərimovun sözlərinə görə, şübhəsiz ki, bu çətin və şərəfli yolda Prezident İlham Əliyevə ən böyük mənəvi dayaq və dəstək Birinci vitse-prezident Mehriban xanım Əliyeva olub: "Şəhid ailələri olaraq həmin günlərdə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bizə göstərdiyi diqqət və qayğını dərindən hiss etdik. Bu gün də şəhid ailələri bu diqqət və qayğını daim öz üzərində hiss edir".

"Azad olunmuş torpaqlarda Böyük Qayıdış layihəsi həyata keçirilir, yeni kənd və qəsəbələr salınır, şəhərlərimiz dirçəldilir. Əminəm ki, bu torpaqlar uğrunda canlarını fəda etmiş igidlərimizin ruhu şaddır. Böyük qürur və fəxarət hissi ilə deyirəm ki, qalib xalqın nümayəndəsi, Yeni Azərbaycan Partiyasının üzvü, qəhrəman atası və azərbaycanlıyam", - deyə şəhid atası əlavə edib.




Vətən Müharibəsi Qəhrəmanı, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi, polkovnik Anar Mirzəyev isə çıxışında qeyd edib ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Azərbaycan Silahlı Qüvvələri 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük müharibədə Ali Baş




Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün döyüş əməliyyatlarını yüksək səviyyədə həyata keçirməklə mənfur düşməni diz çökdürdü, şanlı Zəfər qazandı və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan hərbçilərinin torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şücaət göstərməsi, bu yolda şəhidlik zirvəsinə ucalması xalqımızın yenilməzlik, mətinlik və qəhrəmanlığının ifadəsi oldu".

A.Mirzəyev vurğulayıb ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı Qələbəsinin şahidi oldu: "Azərbaycan öz haqq savaşında Zəfər çaldı. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü göstərdi. Dövlətimizin başçısı "Şuşasız bizim işimiz yarımçıq olar" söyləyəndə xalqımızda belə bir əminlik yarandı ki, Qarabağın tacının, Azərbaycanın döyünən ürəyinin işğaldan azad edilməsi əsas hədəfdir. Dastana çevrilən Şuşa əməliyyatı bu gün də inkişaf etmiş ölkələrin hərbi ekspertləri tərəfindən təhlil edilir, öyrənilir. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu, bizim şanlı Zəfərimizin günüdür. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun malik olduğu imkanların dünyaya təqdimatı oldu. Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və maddi-texniki bazasını möhkəmləndirən Azərbaycan Silahlı Qüvvələri bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz xalqına Qələbəni bəxş etmiş müzəffər orduya çevrilmişdir".

Vətən Müharibəsi Qəhrəmanı əlavə edib ki, 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunub: "Bu, həm şanlı Zəfərimiz - Azərbaycanın suveren hüquqlarının möhkəmləndirilməsi, həm də dövlətimizin əsas




hüquqi sənədi olan Konstitusiyanın qəbulunun 30 illiyi ilə bağlıdır. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası dövlət quruculuğunun təməlini təşkil edir. Bu sənəd xalqın iradəsini, hüquq və azadlıqlarını, dövlətin idarəetmə prinsiplərini özündə ehtiva edir. Azərbaycan tarix boyu müxtəlif çətinliklərdən keçsə də, artıq müstəqil, suveren və güclü bir dövlət kimi dünya arenasında layiqli yerini tutub. Bu gün Azərbaycanın hər qarış torpağında üçrəngli bayrağımızın dalğalandığını qürurla qeyd edirik".

Daha sonra "30 il və 44 gün" tablosunun müəllifi rəssam Çingiz Abasov çıxış edib. O qeyd edib ki, bu gün xalqımızın qəhrəmanlığını, birliyini və əyilməz iradəsini iftixarla xatırlayır, ədalətin bərpa olunduğu möhtəşəm günün qürurunu bir daha yaşayırıq: "Bu gün burada Zəfərimizə həsr olunan "30 il və 44 gün" əsərimi təqdim etməkdən böyük qürur duyuram. Çalışdım ki, bu əsərdə Vətənimizin otuz illik tarixini, xalqımızın qəhrəman ruhunu, dözümü və inamını əks etdirim. Ulu Öndərimiz Heydər Əliyev deyirdi ki, "Qarabağ bizim qəlbimizdədir, ruhumuzdadır. Gün gələcək, biz Qarabağa qayıdacağıq". İllər sonra Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin inamın üzərinə öz möhtəşəm nida işarəsini qoydu: "Qarabağ Azərbaycandır!". Bu gün biz həmin gerçəkliyi yaşayırıq, Qarabağ azaddır və dirçəlir. Bu Qələbə xalqımızın birliyinin, dövlətimizin qüdrətinin və milli iradəmizin rəmzidir. Qoy üçrəngli bayrağımız daim azad Qarabağ səmasında dalğalansın".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Sonra 8 Noyabr - Zəfər Gününə həsr edilmiş konsert proqramı təqdim olunub.

# Biruşaqlı ailələr artır: cəmiyyət ərköyün nəsil yetişdirirmi?



**ARAŞDIRMA**

*Son illərdə həm dünyada, həm də Azərbaycanda biruşaqlı ailələrin sayı artmaqdadır. Keçmişdə çoxuşaqlı ailələr normal sayılırdısa, bu gün bir uşağın olması bir çox ailələr üçün həm sosial, həm iqtisadi, həm də həyat tərzinə uyğun seçimə çevrilib. Lakin bu tendensiya ilə bağlı müxtəlif suallar ortaya çıxır: Tək uşaqla böyüyən nəsil daha çox ərköyün olurmu? Yoxsa valideynlər bütün diqqətini bir uşağa yönəltdiyi üçün onun təhsili və psixoloji inkişafı daha sağlam formalaşır?*

### SİA mövzu ilə bağlı araşdırma aparıb. Dünyada vəziyyət

Biruşaqlı ailə modeli ilk olaraq 20-ci əsrin sonlarından etibarən inkişaf etmiş ölkələrdə yayılmağa başladı. Avropa və Asiya ölkələrində xüsusilə də Almaniya, Yaponiya və Çində az doğum göstəriciləri həm iqtisadi, həm sosial, həm də mədəni dəyişikliklərin nəticəsi kimi qiymətləndirilir. İnsanlar artıq daha çox karyeraya, şəxsi azadlığa və maddi sabitliyə üstünlük verir.

### Azərbaycanda tendensiya

Azərbaycanda da oxşar tendensiya müşahidə olunur. Dövlət Statistika Komitəsinin son illərin məlumatlarına əsasən, ailələrin böyük hissəsi bir və ya iki uşaqlı modelə üstünlük verir. Bunun əsas səbəbləri arasında iqtisadi imkanların məhdudluğu, mənzil problemləri, qadınların əmək bazarına daha fəal qoşulması və ailə planlaşdırmasının artması göstərilir.

### Psixoloji aspekt

Psixoloqların fikrincə, tək uşaqlı ailələrdə böyüyən uşaqlar daha çox diqqət və qayğı görürlər, lakin bəzən bu, onların sosiallaşma prosesini çətinləşdirə bilər. Qardaş və bacı ilə böyüməyən uşaq paylaşmaq, güzəştə getmək və rəqabət aparmaq kimi sosial bacarıqları daha gec formalaşdıra bilər.

Digər tərəfdən, tək uşaqların özünəinamı, məsuliyyət hissi və intellektual inkişafı daha yüksək ola bilər, çünki bütün diqqət və resurslar onlara yönəlir.

### Cəmiyyətin baxışı

Cəmiyyətdə bu məsələ bəzən "ərköyün nəsil" kimi qiymətləndirilir. Xüsusilə yaşlı nəslin nümayəndələri çoxuşaqlı ailələrdə böyüməyin insanı daha möhkəm, əməksevər və dözümlü etdiyini düşünürlər. Amma müasir yanaşmaya görə, uşağın şəxsiyyət kimi formalaşması təkcə qardaş-bacı sayından deyil, ailədaxili münasibətlərdən, tərbiyə üsulundan və sosial mühitdən asılıdır.

Mütəxəssislər hesab edir ki, biruşaqlı ailələrin artması demoqrafik balans üçün risk yarada bilər. Doğum səviyyəsinin azalması gələcəkdə həm əmək qüvvəsinin, həm də ölkə əhalisinin ümumi sayının azalmasına gətirib çıxara bilər. Buna görə də dövlət səviyyəsində ailə institutunun gücləndirilməsi, uşaq böyütməyə dəstək mexanizmlərinin artırılması vacibdir. Biruşaqlı ailələr müasir həyatın təbii nəticəsidir, lakin bu, həm psixoloji, həm sosial, həm də demoqrafik cəhətdən balanslı şəkildə idarə olunmalıdır. Əsas məsələ uşaqların sayında deyil, onların hansı dəyərlərlə böyüməsindədir.

*Ayşən Vəli*

# "Köhnə partiya modeli artıq işləmir"



**ŞƏRH**

*"Siyasi partiyaların zamana uyğunlaşdırılması vacibdir. Mən bu məsələ ilə bağlı təxminən 15 il əvvəl ayrıca yazı da yazmışdım, xüsusilə AXCP ilə bağlı. Çünki Azərbaycan Xalq Cəbhəsi bir hərəkat olaraq Milli Azadlıq Hərəkatı kimi meydana çıxmışdı". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.*

Siyasi şərhçi sözlərinə belə davam edib: "Onun qarşısına qoyulan vəzifə Azərbaycanın müstəqilliyinə nail olmaq idi. 1991-ci ildə Azərbaycan müstəqilləşdi və bundan sonrakı mərhələdə biz düşünürdük ki, artıq o təşkilat gözlənilən missiyasını yerinə yetirib və bununla da tarixə qovuşmalıdır. Təəssüflər olsun ki, sonrakı mərhələdə bu baş vermədi, əksinə, onu partiyaya çevirdilər. Partiyaya çevrilməsi bir tərəfdən, digər tərəfdən də içində baş verən proseslər Azərbaycan siyasi səhnəsini eybəcərləşdirməyə başladı və ard-arda gedən proseslər nəticədə siyasi səhnədə dözülməz bir vəziyyət yaratdı. Ona görə də mən həmin vaxt "Xalq Cəbhəsi arxivə" başlığı ilə yazı yazmışdım və düşünürdüm ki, o təşkilat daha da gözdən düşməmək üçün özünü buraxmalı, siyasi iddiası olan rəhbərləri isə yeni siyasi təşkilat qurub yeni dövrə uyğun fəaliyyət göstərməlidirlər.

Əlbəttə, buna görə müzakirə açmaq istəmədilər, əksinə, partiyanın üzvləri və tərəfdarları məni uzun müddət tənqid etdilər. Hətta bu gün də bu cür fikirlərə görə söz-söhbət edənlər var. Halbuki mənim məqsədim partiyaların bağlanması deyildi, əksinə, yenilənməyə çağırış idi. Günümüzdə də bir daha əmin oluruq ki, Azərbaycanda siyasi partiyaların yenilənməsinə ciddi ehtiyac var. Pozucu fəaliyyətlər göz önündədir, bəzilərinin hətta Moskvaya və Tehrana bağlı fəaliyyətlərini artıq bütün ölkə görür.

Belə bir şəraitdə durub AXCP kimi, yaxud ona bənzər partiyaların siyasi palitrada qalması doğru deyil. Ümumiyyətlə, belə bir fikrimiz də var ki, Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra, misal üçün, Müsavat və AXCP kimi partiyaların rəhbərləri bir dəfə də olsun o torpaqlara getməyiblər və təəccüblüdür ki, onlarla birlikdə Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyev də bir dəfə də olsun həmin torpaqlara ayaq basmayıb. Burada gizlənən səbəb nədir, görəsən? Necə olur ki, 10 illərlə həsrətini çəkdiyimiz torpaqlara bu adamlar getmək istəmirlər? Ona görə də düşünürəm ki, siyasi palitraya yenidən nizam vermək lazımdır. Artıq hakimiyyət-müxalifət məsələlərini vətən-dövlət məsələlərindən ayıra biləcək siyasi qüvvələrin meydanda olması vacibdir; istər müxalifət, istər iqtidar cəbhəsində. İqtidar cəbhəsinə yaxın partiyalar arasında da ciddi ələmə aparmaq lazımdır.

Ümumiyyətlə, Azərbaycanda bu qədər partiyanın olmasını anlaya bilmirəm. Bəzən deyirlər ki, sayı 50-ni keçib. Bu qədər kiçik ölkədə bu qədər partiya nə işlə məşğuldur? Hardadırlar? Azərbaycanın milli davası olanda bu partiyalar dünyaya necə təsir edirlər? Bu suallar açıq qalır. Amerika sistemi kimi iki partiyalı sistem Azərbaycanda bərqərar olarsa, bir tərəfində müxalifət, digər tərəfində iqtidar olmaqla, ümumi siyasi yetkinliyimiz yüksələ bilər".

*Günel Fərzəliyeva*



Mətanət Məmmədova

# İctimai nəqliyyat qədər maraqlı BİZlər...

***Bəzilərimiz böyüsək də, yetkinləşsək, ahıl yaşa çatsaq da, hələ də özümüzü apara bilmirik. Bu, çox yerdə görünür, müşahidə edilir, lakin ictimai nəqliyyat vasitələrində, ona aid dayanacaqlarda, platformada həm göz-gözə görünür, həm də nifrətə səbəb yaradır...***

Vallah, adamın ağlamağımı, gülməyimi, əsəbləşməyimi, əsəbindən ölməyimi gəlir, hansı olur, deyə bilmərəm, amma onu deyə bilərəm ki, elə bir gün olmaz ki, bu hisslərin birini keçirmədən ya işə gəlib çıxa biləsən, ya da evə gedib çata biləsən.

Məsələn, dayanmısan avtobus dayanacağında, gözləyirsən. İndi də gözləmək bir qədər uzun çəkir, bu artıq hər kəsə məlumdur.

Hə, mətləbə gəlim. Gözləyirsən ki, indi marşrut gələr, bir azdan gələr. Gözləyirsən də, nə edəsən? Bir də baxırsan ki, arxadan bir nəfər tüpürdü və o tüpürcək gəlib düz sənin qarşında bərqərar oldu. Nə deyəsən, dönüb geri baxmağı məsləhət görmürəm. Çünki arxada mədəniyyət sarıdan kasıb əhval-ruhiyyədə olan adamın sifətinin üreyinizi sıxacağından ehtiyat edirəm. Bəs nə edəsən, elə yerindəcə deyinəsən? Deyinə bilərsən, lakin nə fayda. Qaldı tənbeh etməyə, bunu da etsən, gərək dava düşə ortaya. Çünki həmin o tüpürən var ha, onda mədəniyyətdən əsər-əlamət olsa, əsla tüpürməz. Elə buna görə də inanın ki, bir söz desəniz, sizi günahkar çıxaracaq.

Daha sonra enirsən metroya ki, ya işə tez çatasan, ya da evə. Platformada yanından əlində çar-çanta ilə biri elə sürətlə ötüb keçir ki, inanın, az qalırsan düşəsən qatar yoluna. Ay qardaş, ay bacı, hələ nə qatar var, niyə tələsirsən, hara tələsirsən? Guya elə qatar gələn kimi minib gedəcəksən? Bu olardı tətildən əvvəlki vaxt ki, bir, iki deyib qatarları yola salandan sonra üçüncüyə minsən, bu da Allahın qisməti, sənə bəxşişi ola bilərdi. İndi ki, sakitlikdi, qoy qatar gəlsin dayansın, içindəki sərnişinlər ensin, min də, bəs belə iş olmaz axı...

Yaxşı, bir təhər qatara minmək nəsib, qismətin oldu. Ta qaldın qatarda, İndi gəl, en görüm, necə enirsən? Nə qapının ağzındakılar buna yol verəcək, nə də platformada dayanıb qapının açılmasını və özünü vaxt itirmədən içəriyə salmaq istəyən sərnişinlər. Sən qalırsan ortalıqda, xıncmınc olandan sonra bir təhər ya bayıra çıxa bilirsən, ya da qatar yola düşür, bir stansiya da irəli getmiş olursan. Əsəblərin pozulur. Lakin nə fayda...

Olur da, Allahın işidir, təsadüflərin təsadüfü nəticəsində ya metroda qatarda, ya da marşrut avtobusda əyləşmisən, görürsən ki, yanındakı yer boşdur, papağını, ya da əlindəki çantanı da oraya qoyursan. Bunları əldə də saxlamaq olar da. Düzdür, boşdur, lakin o yer axı bizim papaq, çantalarımız üçün deyil. Gərəkdir ki, bir sərnişin gəlib başımızın üstündə dayana, ondan xeyli sonra bizə çata ki, əşyanı götür, qoy adam əyləşsin...

Maraqlıdır, vallah, bizim hər işimiz maraqlıdır. Bakıda ictimai nəqliyyatın fəaliyyəti nə qədər maraqlıdırsa, heç özümüzü kənara çəkməyək, bizim hərəkətlərimiz, ictimai nəqliyyatda davranışlarımız ondan da maraqlıdır.

Bəs çarə nədir? Çarə odur ki, özümüzə cavabdeh olaraq özümüzdə dönüş yaradaq. Papağımızı boş sərnişin oturacağına yox, qarşımıza qoyub bir fikirləşək. Fikirləşək ki, düzgün hərəkət edəcəyimizə qərar verək. Yoxsa, vallah, belə olmaz...

ANALİTİK

# Enerji, iqtisadiyyat və veto

## Macarıstan niyə Rusiyaya qarşı sanksiyalarda tərəddüd edir?

***Macarıstanın Rusiayaya qarşı tətbiq olunan sanksiyalara bütövlükdə qoşulmaqla bağlı mövqeyi mürəkkəbdir. Daha doğrusu, Budapeşt bəzi sanksiya paketlərinə razılıq verib, digərlərini isə bloklamağa çalışır. Əsas səbəblərdən biri enerji asılılığı və milli təhlükəsizlik narahatlığıdır. Macarıstan Rusiyadan idxal etdiyi neft və qaz baxımından ciddi dərəcədə asılıdır. Məsələn, təhlillərə görə, Macarıstanın qaz idxalı sektoru bütünlüklə Rusiyaya bağlıdır. Bu səbəbdən sanksiyaların enerji sahəsinə təsiri Macarıstan üçün "milli təhlükəsizlik" məsələsinə çevrilib. Hökumət bu nöqteyi-nəzərdən hesab edir ki, sanksiyalar Macarıstanın enerji təchizatını zədələyə, qiymətləri artıra bilər.***



İkinci səbəb sanksiyaların effektivliyi və iqtisadi itkilərdir. Macarıstanın hökuməti və




xarici işlər nazirliyi hesab edir ki, sanksiyalar Rusiyanı yetərincə təsir etməyib, lakin Avropa ölkələrinə, o cümlədən Macarıstana ciddi iqtisadi ziyan vurub. Məsələn, Macarıstan bu sanksiyalardan ötən illərdə 20 milyard avro itirib.

Üçüncüsü isə Avropa İttifaqı daxilində veto hüququ və taktiki manevrlərdir. Avropa İttifaqında Rusiyaya qarşı sanksiyalar bütün üzv dövlətlərin razılığı ilə qəbul edilir. Macarıstan bu mexanizmdən istifadə edərək bəzi paketləri bloklamaq və şərt qoymaqla öz maraqlarını müdafiə edib. Məsələn, Macarıstan bəzi paketlərin qəbulundan əvvəl enerji təhlükəsizliyi ilə bağlı bəyanatlar almaq istəyib.

Dördüncüsü kompromislər və istisnalardır. Macarıstan bəzi paketləri dəstəkləyib. Məsələn, 2024-cü ilin dekabrında qəbul olunan 15-ci sanksiya paketində Macarıstanın enerji şirkəti MOL Group-a müəyyən istisnaların verilməsi şərtilə razılıq verib. Bu da göstərir ki, "məhdud şərtlərlə" sanksiyaların içində iştirak edə bilər. Beləliklə, Macarıstan tamamilə sanksiyalara qoşulub-qoymama məsələsində "bəli", "yox" deyil, "şərtlərlə", "kompromislə" yanaşma xətti götürüb. Yəni səbəblər arasında enerji təhlükəsizliyi, iqtisadi zərərlər, blok daxilində veto hüququ və xüsusi istisnaların təmin edilməsi yer alır.

### Viktor Orban ABŞ-da həyati dəstək axtarır

Macarıstanın baş naziri Viktor Orban gələn həftə prezident Trampla görüşərək ölkəsinin Rusiyadan neft və qaz almağa davam etməsinə imkan verən Rusiya enerji şirkətlərinə qarşı sanksiyalardan azad edilməsini müzakirə edəcək. Vaşinqtondakı danışıqlar Budapeştdə Rusiya-Amerika sammiti ideyasını da canlandıra bilər. Belə bir sammitin keçirilməsi və Rusiyanın Macarıstana enerji tədarükünün davam etdirilməsi, AB siyasətinə alternativ olan Ukrayna siyasəti ilə Viktor Orbanın siyasi gələcəyini böyük ölçüdə müəyyən edəcək. 2026-cı ilin aprelində keçiriləcək parlament seçkiləri ərəfəsində Macarıstanın hakim partiyası Rusiya əleyhinə və Brüsselyönlü şüarlar altında hakimiyyətə can atan müxalifətlə mübahisəsində həlledici arqumentlər axtarır.

ABŞ prezidenti Donald Tramp Macarıstanın baş naziri Viktor Orbanın Rusiyanın enerji şirkətləri "Rosneft" və "Lukoyl"a qarşı oktyabrın 22-də tətbiq etdiyi sanksiyalardan imtina etmək və Macarıstanın Rusiyadan neft və qaz almağa davam etməsinə icazə vermək tələbi ilə hələ razılaşmayıb. Donald Tramp noyabrın 7-də Vaşinqtonda Viktor Orbanla keçirilməsi planlaşdırılan görüşdən əvvəl jurnalistlərə açıqlamasında "O, güzəşt istədi. Biz bunu ona vermədik" deyib. Tramp cənab Orban və ətrafının Şərqi Avropa ölkəsinin enerji təhlükəsizliyinə zərbə vuran Rusiyaya qarşı sanksiyalardan Macarıstanı qorumaq çağırışlarını şərh edərkən deyib. Xaricə səfərə hazırlaşan Viktor Orbanın özü də Budapeşt üçün Rusiya nefti və qazı məsələsini Vaşinqton danışıqlarında mərkəzi məsələlərdən biri adlandırıb. "Əgər biz Rusiyanı hədəf alan Amerika sanksiyalarından azad olmaq istəyiriksə, o zaman əmin olmalıyıq ki, Amerika bu qəribə vəziyyəti başa düşsün", - cənab Orban bildirib. Macarıstanın baş nazirinin sözlərinə görə, Vaşinqtona səfəri zamanı o, Amerika Birləşmiş Ştatları ilə Macarıstanda Amerika investisiyalarını nəzərdə tutan iqtisadi sazişi yekunlaşdırmağı gözləyir. Bununla belə, Vaşinqtonla istənilən sövdələşmə Macarıstanın Rusiyanın enerji resurslarına əvvəlki çıxışını saxlamasından birbaşa asılı olacaq.

Macarıstanın xarici işlər naziri Pyter Szijyarto da Rusiyanın enerji resursları məsələsinə toxunub. "Vaşinqtonda enerji təchizatı məsələsi mühüm müzakirə nöqtəsi olacaq, çünki Macarıstan və ABŞ arasında hazırlanmaqda olan əsas iqtisadi sazişlər paketi əsasən enerji təchizatı və ya enerji əməkdaşlığına əsaslanır, yeri gəlmişkən, çox güclü nüvə komponenti var. Bununla belə, qazıntı yanacaqlarından istifadə qaydaları da müzakirə olunacaq", - Sijjarto izah edib. "Bizim enerji təhlükəsizliyimiz Rusiya ilə vicdanlı və etibarlı əməkdaşlığa əsaslanır. Biz gözləyirik ki, baş nazirimizin gələn həftə ABŞ-a səfəri zamanı bu mövzuda müzakirələr uğurla nəticələnəcək", - xarici işlər naziri əlavə edib və prezident Trampı "Macarıstanın enerji vəziyyətinə hörmətlə yanaşmağa" çağırıb.

Öz növbəsində, Macarıstanın baş nazirinin aparat rəhbəri Gergely Gulyas Budapeştin ABŞ sanksiyalarının uzadılması ilə bağlı tələbini məntiqli və əsaslı adlandırıb, belə ki, Macarıstan coğrafi mövqeyinə görə dənizə çıxışı olmayan və tanker daşıma imkanlarına malik deyil və neft və qazı yalnız boru kəmərləri vasitəsilə əldə edə bilir.

Prezident Trampın qəti cavabının olmaması səbəbindən vəziyyətin gözlənilməzliyini nəzərə alaraq, Macarıstan hökuməti artıq neft və neft məhsullarının saxlanması ilə bağlı qanuna düzəlişlər hazırlayıb ki, ABŞ sanksiyaları səbəbindən tədarükün dayandırılması halında ehtiyat yanacaqdoldurma stansiyaları kritik istehlakçılar üçün istifadə olunsun. Macarıstanın Energetika Nazirliyinin məlumatına görə, hökumət yanacaqdoldurma məntəqələrinin fəaliyyəti və yanacağın prioriteti üçün qaydalar hazırlayır. Yeni qaydaların gələn il yanvarın 1-dən qüvvəyə minəcəyi gözlənilir.

Donald Tramp və Viktor Orban arasında Vaşinqtonda keçiriləcək danışıqlarda yeganə mövzu enerji təhlükəsizliyi məsələləri olmayacaq. Cənab Trampın ABŞ-Rusiya prezidentlərinin Budapeşt sammitinə hazırlığı dayandırmaq barədə qəfil qərarı Macarıstan tərəfi üçün gözlənilməz və məyusedici xəbər olsa da, Rusiya-Amerika sammiti üçün potensial məkan olaraq qalmaq əzmini sarsıtmadı. "Bizim böyük gözləntilərimiz var, çünki bilirik ki, prezident Tramp sülhə nail olmaq üçün tamamilə sadiqdir və ümumiyyətlə, bunun üçün yeganə ümiddir. Ona görə də biz çox ümid edirik ki, prezident Tramp və prezident Putin telefonda razılaşdıqları görüşü keçirəcəklər, biz də məmnuniyyətlə ev sahibliyi edəcəyik. Anladığımız qədəri ilə tərəflərin heç biri bu plandan əl çəkməyib. Söhbət vaxt və məzmunla bağlıdır". Pyter Szijyarto Minskdə Avrasiya Təhlükəsizliyi üzrə Beynəlxalq Konfrans çərçivəsində media nümayəndələrinin suallını cavablandırıb. "Amma Avropa liderləri bunda maraqlı deyil. Birincisi, ona görə ki, danışıqlar Budapeştdə olacaq və siyasi nöqteyi-nəzərdən bu, onlar üçün çox xoşagəlməz olardı. "Daha da önəmlisi, onlar buna qarşı çıxırlar, çünki sammit sülhə ümid yaradır. Avropa liderləri danışıqlar masası arxasında olmadıqları üçün məyusdurlar", - Macarıstanın xarici işlər naziri izahat verib.

Viktor Orbanın özü, Kossuth radio proqramında Vaşinqtona səfərindən sonra Budapeşt sammitinin yaxınlaşıb-yaxınmayacağı ilə bağlı sualı cavablandırarkən dedi: "Düşünürəm ki, biz yaxınlaşa bilərik". Macarıstanın baş naziri Ukraynada sülhün bərqərar olmasını "Vaşinqtonda danışıqların mühüm mövzularından biri" adlandırıb. Müsahibəsində Viktor Orban da bir daha prezident Trampı Avropa liderləri ilə müqayisə edərək, onları Ukrayna münaqişəsini genişləndirməyə çalışmaqda ittiham edib. "Kim Ukraynanı dəstəkləyirsə, o, müharibəni dəstəkləyir. Avropa liderləri odla oynadıqlarını başa düşmürlər" deyən cənab Orban indiki siyasi vəziyyəti Birinci və İkinci Dünya Müharibəsi ərəfəsində yaranmış vəziyyətlə müqayisə edərək xəbərdarlıq edib.

Onun sözlərinə görə, yeganə müsbət hadisə ABŞ-ın Donald Trampın prezident seçilməsindən sonra sülhməramlı mövqe tutması və Ukraynadakı münaqişənin sülh yolu ilə həllinə tərəfdar olmasıdır. Bu həftə xalqa etdiyi videomüraciətdə Viktor Orban ölkədə noyabrın 15-də ölkənin şimal-qərbindəki Gyor şəhərində başlayacaq və ölkə daxilində bir sıra anti-müharibə etirazlarından ibarət olacaq bir anti-müharibə kampaniyasının başladığını elan edib. "Gəlin bütün dünyaya göstərək ki, Macarıstan müharibə istəmir", - Viktor Orban həmvətənlərinə deyib.

Oktyabrın 23-də Budapeştdə təşkilatçıların məlumatına görə, 80 min insanı cəlb edən "Sülh marşı" keçirilib. Viktor Orban orada iştirak etmək üçün hətta Brüsseldə keçirilən Aİ sammitinin açılışını da qaçırıb və Budapeştdən "bütün dünyaya müharibə əleyhinə mesaj" veriləcəyini bildirib. Gələn ilin aprelində Macarıstanda keçiriləcək parlament seçkilərində Ukraynada müharibə və sülh, Rusiya ilə münasibətlər əsas məsələlər olacaq. Son aylarda populyarlıq qazanan Pyter Magyarın rəhbərlik etdiyi müxalif Tisza partiyası Viktor Orbanın rəhbərlik etdiyi hakim Fides-Macar Vətəndaş Birliyi partiyasından hakimiyyəti ələ keçirməyə çalışacaq.

Oktyabrın 23-də Budapeştdə anti-hökumət qüvvələrinin keçirdiyi alternativ mitinqdə Macarıstan müxalifətinin lideri Pyter Magyar sərt ifadələrlə çıxış edərək hökuməti korrupsiyada və Rusiyaya qarşı tutduğu mövqeyə görə ittiham edib, Viktor Orban hökumətinin dəyişdirilməsinə və Brüsselə əlaqələrin bərpasına çağırıb.

**V.VƏLİYEV**

# Qlobal dövlət borcu

***Dünyada dövlətlərin borcu davamlı olaraq artmaqdadır və 2025-ci ildə dünyanın bir çox ölkəsində ÜDM-ə nisbətdə borc səviyyələri yüksəlməkdədir. Məsələn, 2025-ci ilə dair məlumatlara görə, "ümumi hökumət borcu"nun ÜDM-yə nisbəti üzrə yüksək rəqəmlər mövcuddur. Japoniyada bu göstərici təxminən 230 % civarındadır. Dollarla ifadə olunan borq baxımından isə: ən böyük dövlət borclarına malik ölkələr sırasına ABŞ (~ $38 trilyon), Çin (~ $18.7 trilyon) və Yaponiyanın da daxil olduğu ölkələr daxildir. Ümumi dünya üzrə hökumət borcu ÜDM-yə nisbətdə və dollarla ifadə edildikdə artan tendensiyadadır.***



Böyük dövlət xərcləri hökumətlərin kreditə daha çox müraciət etməsinə səbəb olub. Aşağı faiz dərəcələri və uzun müddətli borclanma, bəzi ölkələrdə borcun artmasını təşviq edib. Bəzi ölkələr üçün borcun ÜDM-ə nisbəti yüksək olduqda "borcun geri ödənməsi riskləri", faiz ödənişlərinin böyük hissəsinin dövlət büdcəsində pay alması kimi narahatlıqlar yaranır. Hansı ölkələr "çox borcludur"? Yaponiyanın borcu ÜDM-yə nisbətdə çox yüksəkdir (~230 %). Avropa və digər inkişaf etmiş ölkələrdə (məsələn, İtaliya, Yunanıstan) ÜDM-ə nisbətdə borq yüksək səviyyədədir. Borcun nominal (dollarla) miqdarında isə ABŞ birinci yerdədir.

Beynəlxalq Valyuta Fondu (BVF) qlobal hökumət borcunun müasir tarixdə heç vaxt olmadığı qədər sürətlə artdığını bildirir. BVF-nin son hesabatında bildirilir ki, qlobal hökumət borcları əvvəlkindən daha sürətlə artır. Bu, ümumilikdə dünya üçün hansı təhlükələr yaradır? Borclar gözləniləndən daha sürətlə artır. BVF bildirir ki, borcu 100%-dən yuxarı olan ölkələrin sayı qarşıdakı beş il ərzində tədricən azalsa da, onların qlobal ÜDM-dəki payının artacağı proqnozlaşdırılır. Həmçinin qeyd edilir ki, ümumi dövlət borcu 2029-cu ilə qədər qlobal ÜDM-in 100%-ni keçəcək. Bu ssenariyə əsasən, borc 1948-ci ildən bəri ən yüksək səviyyəyə çatacaq.

BVF hesablamalarına görə, dövlət borcunun artım trayektoriyası pandemiyadan əvvəl proqnozlaşdırılandan daha yüksək olacaq. Bu, qlobal artımın bərpasına baxmayaraq, hökumətlərin borcunu stabilləşdirə bilmədiyini nümayiş etdirir. İnkişaf etmiş ölkələr ən böyük borcları yaradır. BVF ekspertləri nəinki inkişaf etmekdə olan ölkələrin, hətta inkişaf etmiş ölkələrin də qlobal borclarını artırmasından narahatdırlar.

BVF-nin hesabatında deyilir: "ABŞ başda olmaqla aparıcı ölkələrin maliyyəsi sistemli qlobal riskə çevrilib". Beynəlxalq qurum ABŞ-da borc artım tempinin ən sürətli olacağını proqnozlaşdırır. "Ən böyük inkişaf etmiş iqtisadiyyatlar arasında ABŞ borcunun ÜDM-ə nisbətində sürətli artım nümayiş etdirir. Beləliklə, 2023-cü ildən 2030-cu ilə qədər ümumi dövlət borcu ÜDM-in 120%-dən 144%-ə yüksələcək", - hesabatda bildirilir. BVF bu yüksəliş meylini davamlı olaraq böyük kəsirlər və artan faiz ödənişləri ilə əlaqələndirir. Ekspertlər Vaşinqtonun borcunun ən çox borclu olan Avropa iqtisadiyyatları ilə müqayisə oluna biləcəyi üçün fiskal islahatlara ehtiyac olduğunu vurğulayırlar.

BVF qeyd edir ki, Birləşmiş Ştatlar ilk dəfə olaraq bu göstəricidə uzun müddətdir ki, ən çox borclu inkişaf etmiş iqtisadiyyatlar hesab edilən İtaliya və Yunanıstanı keçəcək. İtaliyanın borcu ÜDM-in təxminən 137%-ni təşkil etməklə dünyada ən yüksək borclar arasında qalır, lakin BVF onun 2030-cu ildə də eyni səviyyədə qalacağını gözləyir. Hazırda ÜDM-in 147%-ni təşkil edən Yunanıstan borcunun 130%-ə düşəcəyini görə bilər. Müqayisə üçün qeyd edək ki, Fransanın borc nisbəti 116,5% təşkil edir, İspaniya 100,4%, Almaniyada isə 64,4% təşkil edir. Bu arada, Niderland, İsveç və Danimarka borc nisbəti 60%-dən aşağı olmaqla yüksək nailiyyətlər əldə edən ölkələrdir. Nəticədə, Avropa maliyyə intizamlı şimal ölkələri ilə daha az cənub ölkələri arasında bölünür. Kanada, Çin, Fransa, İtaliya, Yaponiya və Böyük Britaniyanın borc nisbəti ÜDM-in 100%-dən yuxarıdır. BVF ekspertləri qeyd edirlər ki, "Borcun davamlılığı böhranı inkişaf etməkdə olan dünyadan birbaşa G20-yə - beynəlxalq maliyyə sisteminin əsasını təşkil edən ölkələrə keçdi".

### İnkişaf etməkdə olan ölkələrin nə qədər borcu var?

İnkişaf etməkdə olan ölkələrin (Çin istisna olmaqla) dövlət borcu orta hesabla azalaraq ÜDM-in 56%-dən azına çatıb. Eyni zamanda, inkişaf etməkdə olan Çinin dövlət borcu artmaqda davam edərək ÜDM-in 88%-nə çatıb (bir il əvvəl bu göstərici 82% idi). ÜDM-ə nisbətdə orta borc nisbətlərinin nisbətən aşağı olmasına baxmayaraq, bir çox inkişaf etməkdə olan ölkələr mürəkkəb fiskal problemlərlə üzləşirlər və borcları ÜDM-in 60%-dən aşağı olsa belə, yüksək borc yükü riski altındadırlar.

Bəs borc artımına nə səbəb olur? Qlobal iqtisadi borcun bir neçə səbəbi var. Birincisi, bütün dünyada hökumətlər COVID-19 pandemiyası zamanı antiböhran tədbirlərini maliyyələşdirmək üçün borclanmanı əhəmiyyətli dərəcədə artırdılar (biznes subsidiyaları, ev təsərrüfatlarına dəstək). Bu müddət ərzində yığılan borc qalır. İkincisi, əhalinin qocalması səbəbindən sosial təminat və pensiya xərclərinin artması müşahidə olunur. Üçüncüsü, artan geosiyasi gərginlik və münaqişə var ki, bu da borc hesabına maliyyələşən hərbi xərclərin artmasına gətirib çıxarır.

Bundan əlavə, iqtisadi və maliyyə amilləri var. Onların arasında faiz dərəcələrinin artması da var. Mərkəzi banklar inflyasiya ilə mübarizə aparmaq üçün onları artırıblar. Bu, mövcud borclara xidmət xərclərinin artmasına səbəb oldu və hökumətləri faizləri ödəmək üçün daha çox borc verməyə məcbur edib. ÜDM artımının yavaşlaması da borc artımına



kömək edir. Nominal borc sabitləşsə belə borcun ÜDM-ə nisbəti yüksələcək. Digər amil proteksionizm və ticarət mübahisələrinin artmasıdır. Bu, qeyri-müəyyənlik yaradır və qlobal ticarətə mane olur, ölkələrin gəlirlərini azaldır.

### Borc qlobal iqtisadiyyatı necə təhdid edir?

Dünyada yüksək borc səviyyəsi qlobal iqtisadiyyat üçün ciddi təhlükə yaradır. BVF müntəzəm olaraq xəbərdarlıq edir ki, bu vəziyyət hökumətlərin gələcək iqtisadi şoklara və böhranlara cavab vermək imkanlarını məhdudlaşdırır. Hər şeydən əvvəl, böyük borc fiskal məkanı məhdudlaşdırır. Əsas nəticə ondan ibarətdir ki, borclara xidmət xərcləri dövlət büdcəsinin getdikcə artan hissəsini istehlak edir. Bu, infrastruktur, təhsil, səhiyyə və s. kimi kritik sahələrə investisiya qoyuluşunda maneələr yaradır. Artan borcları ödəmək üçün hökumətlər ya dövlət xərclərini azaltmağa (bu, artıma mane olur), ya da fiziki şəxslərə və biznesə vergiləri artırmağa, bununla da iqtisadiyyatın rəqabət qabiliyyətini azaltmağa məcbur olur.

Bundan əlavə, yüksək borc maliyyə qeyri-sabitliyi və borc böhranı riski ilə doludur. İnvestorlar ölkələrin öz öhdəliklərini yerinə yetirmək qabiliyyətinə inamını itirsələr, bu, istiqrazların kəskin şəkildə satılmasına, faiz dərəcələrinin artmasına və valyutanın çökməsinə səbəb ola bilər. Belə çaxnaşma qlobal maliyyə sistemini sabitsizləşdirərək domino effektinə səbəb ola bilər. Nəhayət, borc yükü uzunmüddətli iqtisadi artıma mənfi təsir göstərir. Maliyyə bazarlarında aktiv borc götürməklə hökumət özəl sektorla kapital uğrunda rəqabət yaradır. Bu, özəl şirkətlər üçün borclanma xərclərini artırır, özəl investisiyaların azalmasına və milli hasilat və gəlirin azalmasına səbəb olur.

Qlobal borcun artması ölkələr üçün ayrı-ayrılıqda təhlükə yaradır, çünki onların iqtisadiyyatı müxtəlif təsir və səbəblərdən xarici maliyyələşmədən və qlobal bazarların sabitliyindən kritik dərəcədə asılıdır. Ən mühüm təhlükə qlobal bazarda pulun bahalaşmasıdır. Qlobal investorlar aktivlərini ikinci dərəcəli mövqeyə keçirərək daha təhlükəsiz öhdəliklərə üstünlük verə bilərlər. Bundan əlavə, donor ölkələrdə borcların yığılması onların daxili borclarına xidmət xərclərinin artmasına səbəb olur. Bu, ölkələrin büdcəsinin maliyyələşdirilməsi üçün vacib olan xarici yardım üçün büdcələrin azaldılması riskini yaradır.

Nəhayət, yüksək qlobal borc qlobal iqtisadi artımı ləngidə bilər. Bu, ixrac tələbinin azalmasına və nəticədə valyuta gəlirlərinin azalmasına səbəb olacaq. Yavaşlayan qlobal iqtisadiyyat sonrakı layihələri və ölkələrin yüksək borc yükünü azaltmaq üçün lazım olan iqtisadi artımı çətinləşdirəcək.

Mərkəzi və Şərqi Avropa, o cümlədən Cənubi Qafqaz regionları üzrə hökumətlərə məxsus borc - ÜDM nisbətlərinin cari vəziyyəti, əsas dəyişikliklər və diqqətə çarpan trendlər barədə danışarkən əsas göstəricilərə diqqət etmək lazımdır. Rumıniyada dövlət borcu ÜDM-yə nisbətdə 2025 ci ilin birinci rübündə ~ 55.7 % olduğu bildirilir. Avropa İttifaqı üzrə orta göstərici isə 2025 ci ilin I rübündə "ümumi hökumət borcu/ÜDM" nisbəti Avrozonada ~ 88.0 % olub. Bölgədə borc səviyyəsi ölkədən-ölkəyə fərqlənir. Məsələn, bəzi ölkələr daha aşağı nisbətə sahibdirlər.

Qeyd edək ki, borc səviyyəsi təkcə faizlə deyil, borcun idarəolunması, faiz ödənişlərinin büdcəyə təsiri və iqtisadi böyümə ilə müqayisədə baxılmalıdır. Avropa ölkələrində borc səviyyəsi hələ Avrozonanın yüksək borclu ölkələri ilə müqayisədə "nisbətən sağlam" görünə bilər, amma borc artım tempi və gələcəkdə faiz şoku və ya böhran riskləri nəzərə alınmalıdır. Şərqi Avropa ölkələrinin əksəri Avropa İttifaqında olduğundan, Avropa səviyyəsindəki makro təhlillər bu ölkələrin borc siyasətinə də təsir edir.

### Cənubi Qafqaz və Azərbaycan

Cənubi Qafqaz ölkələrinin dövlət borclarına dair ən son məlumata əsasən, 2024-cü ildə Azərbaycanın dövlət borcu ÜDM-yə nisbətdə təxminən 23.8 % olub. 2025-ci ilin əvvəlində rəsmilərə görə bu göstərici 21.7 % səviyyəsindədir. 2025-ci ildə isə maliyyə agentliyi Fitch Ratings bu göstəricinin ~21.8 % olacağını proqnozlaşdırıb. Borcun strukturu: xarici borc ÜDM-nin ~6.6 %-i səviyyəsindədir, daxili borc isə ~13.8 % səviyyəsində.

Azərbaycanın dövlət borcu nisbətən aşağı səviyyədədir — 20-30 % aralığında. Bu, bir çox ölkə ilə müqayisədə "nəzərəçarpan borc riski"nin daha məhdud ola biləcəyini göstərir. Lakin borcun strukturunu (xarici vs daxili) və valyuta tərkibini nəzərə almaq vacibdir.

2024-cü ildə Ermənistanın dövlət borcunun ÜDM-yə nisbəti təxminən 53.0 % olub. Orta müddətli dövrdə bu göstəricinin ~ 54 % səviyyəsinə qədər arta biləcəyi proqnozlaşdırılır. 2024-cü ilin sonunda dövlət borcu təxminən 12.84 milyard ABŞ dolları səviyyəsində olub. Ermənistan üçün borc/ÜDM nisbəti ~50 %-dən yuxarıdır, yəni region üzrə nisbətən daha yüksək borc vəziyyətindədir. Bu isə faiz ödənişləri və borcun idarəolunması baxımından müəyyən risklər yarada bilər.




2023-cü ilin sonuna görə Gürcüstanın dövlət borcu ÜDM-yə nisbətdə ~ 39.2 % səviyyəsindədir. Son rəqəmlər 2024-cə daha yenilənmiş deyil, amma bu göstərici region üzrə orta səviyyədədə sayılır. Gürcüstan üçün borc/ÜDM nisbəti Azərbaycanınkından yüksək, Ermənistanınkından isə aşağıdır. Bu baxımdan regionun "orta" göstəricisi kimi qiymətləndirilə bilər.

Azərbaycan borc baxımından regionda ən "ünsiyyətli" mövqedədir, aşağı borc səviyyəsi mövcuddur. Ermənistan isə borc/ÜDM nisbəti ilə regionda daha "çətin" vəziyyətdədir və borcun idarəolunması baxımından diqqət tələb edir. Gürcüstan isə arada bir səviyyədədir, nisbətən mülayim borc səviyyəsinə malikdir. Hər üç ölkə üçün yalnız borcun nisbəti kifayət deyil, borcun strukturunu (xarici vs daxili), valyuta riskini, faiz ödənişlərinin büdcəyə təsirini və iqtisadi böyümə perspektivlərini də nəzərə almaq lazımdır.

***V.VƏLİLİ***

RAKURS

ANALİZ

# Vətəndaş jurnalistikasının təhlükəsi: peşəkarlar necə uduzur?

***Ünsiyyətin rəqəmsallaşması və onlayn media platformalarının yaranması jurnalistikanın və jurnalistlərin iş prosesində transformasiyaya səbəb oldu. Çap mediasında reklam və satış gəlirləri azalmağa başladı, tiraj düşdü. Təəssüflə qeyd edim ki, çap olunan KİV-lər tədricən yayım ömrünü dayandırır, gündəlik dərc olunan qəzet və jurnallar həftəlik rejimə keçirlər, həftəlik mətbu orqanlar aylıq dərc olunurlar. Çap mediasında işləyən jurnalistlər var gücü ilə buna mane olmağa çalışırlar, amma faydası olmur. Azərbaycan mediasının ən nəhəng imzaları da bu mübarizəyə dəstək verir, ənənəvi qəzetçiliyin ömrünü uzatmağa çalışırlar. Lakin zaman özü ilə nələr gətirəcək, hələ ki, hamımız üçün qaranlıqdır.***



## Yalan, böhtan yazan saytların fonunda peşəkar jurnalistika

Rəqəmsallaşma və internet jurnalistikası, ənənəvi jurnalistikada problem yara-



dan ən mühüm amildir. Xəbər dəyərləri, peşəkar etika, xəbərin hazırlanma prosesi, iş şəraiti və xəbərin idarə edilməsi kimi bir çox məsələ rəqəmsallaşma ilə don dəyişdirərək transformasiyaya məruz qaldı. Bu transformasiya çap mediasında çalışan peşəkar jurnalistlər üçün təhlükə yaratdı, bu öz yerində, lakin eyni zamanda şər, böhtan, yalan, əsilsiz xəbərlərin də gündəmə ayaq açmasına səbəb oldu. Peşəkar informasiya agentlikləri, ciddi xəbər yayımlayan saytlar istisna olmaqla bir çox sayt və portal yalançı şou və əsilsiz xəbər tələsinə düşdü.

Əslində, rəqəmsal texnologiyalar, jurnalisti lazımsız hala salmaq potensialına malikdir, necə ki bunun üzərində yavaş-yavaş işləyir. Üstəlik, süni intellekt həyatımıza girdikdən sonra olacaqları təsəvvür edin. İnternet bu gün özünəməxsus jurnalistika növünü yaradıb. Bu internetdə xəbər məzmununu toplayan və yayan qisimdir. Araşdırmadan, əslini dəqiqləşdirmədən, qarşı tərəfə söz haqqı tanımadan kor-koranə yayılan məlumatlar jurnalistika məhsulu kimi oxucuya sırınır.

Bu gün təkcə ofislərdən, redaksiyalardan deyil, internet bağlantısı olan istənilən yerdən xəbər yazıla və paylaşıla bilər. Bu üstünlük xəbər istehsal prosesinin müstəqil olmasına imkan verir, lakin nəzarət mexanizmi itir. Üstəlik “azad rəqabət” adı altında jurnalistika prinsiplərinə, təməl qaydalara əməl etməyən sayt və portallar meydanda at oynadır. Rəqəmsallaşmanın gətirdiyi bəzi yeniliklər jurnalistika peşəsinə ciddi təsir göstərir, hətta zamanla jurnalistikanın təməl prinsiplərini, iş əxlaqını dəyişdirir.

Dəyişən amillərdən biri də sürətli və bütün rəqiblərdən əvvəl xəbər verməkdir. Bu da öz növbəsində tələskənliyə və “çiy” materialın yayılmasına səbəb olur. Ən tez yayımlamaq istəyi materialın ənənəvi jurnalistikada olduğu kimi dəqiqliklə işlənməməsinə və bir çox hallarda yalan və əsli olmayan məlumatı dərc etməyə səbəb olur. Bu prosesdə dil qaydalarının kobud şəkildə pozulması, ciddi səhvlərlə zəngin yazıların meydana çıxması da qaçılmaz olur.

## Vətəndaş jurnalistikası və yaratdığı təhlükə

Rəqəmsallaşma və internetin həyatımıza nüfuz etməsi ilə ortaya çıxan “vətəndaş jurnalistikası” anlayışı mətbuata özü ilə bərabər bir çox dəyişiklik və yenilik də gətirdi. Məsələn, ənənəvi jurnalistlərə olan ehtiyac azaldı, indi ən sadə bir vətəndaş da reportyor, jurnalist fəaliyyəti göstərir və onlarla işləmək saytlara, portallara daha çox sərf edir. Bölgələrdə peşəkar journalist postuna xərc çəkilməsi lazımsız hesab edilir, ərazidən bir həvəskar vətəndaş tapılır, əlinə bir mikrafon verilir, yaxasına bir vəsiqə asılır və beləcə məsələ həll olunur. Bəzən çox cüzi maaşa işləyirlər, bir çox halda onlara maaş da ödənilmir, həvəskar kimi əməkdaşlıq edirlər, işlədiyi media orqanının nüfuzundan istifadə edib bölgədə imtiyazlardan istifadə edir, bölgələrdə “jurnalist rüşvət alır” fikrini formalaşdırır.

Bu adamlar beyin məhsulu yaratmır, sadəcə daşıyıcı rolunu icra edirlər, buna görə də daha çox maaş tələb etmirlər. Gəncdirlər, dinamikdirlər, amma təcrübəsizdirlər, onları idarə etmək asandır. Peşəkar bir jurnalist istismar edilməyə əsla razı olmur, əsilsiz xəbər yazmır, dəqiqləşdirmədən məlumat ötürmür və peşəsini hər şeydən yuxarıda tutur. Onun 1 həftəyə araşdırdığı məsələni 1 gündə araşdıracağını iddia edən yerli vətəndaş təbii olaraq media partonunun diqqətini çəkir. İndi bir çox media patronunu əsli olan, səhih xəbər maraqlandırmır, axı rezonans doğuran yalan məlumat saytın İP sayını daha çox artıra bilir. Bu da öz növbəsində daha çox reklam almaq və daha rahat gəlir əldə etmək deməkdir.

Razıyam, sosial şəbəkələr sadə insanların öz fikirlərini geniş kütlə ilə bölüşə bildiyi mühitə çevrilib, insanlar bu yolla problemlərinin həllinə nail olurlar. Lakin internetin verdiyi bu imkan “vətəndaş jurnalistikası” adlandırılaraq peşəkar jurnalistin fəaliyyətinə mane olur. Vətəndaş jurnalistikası sosial şəbəkələrdə olduğu müddətdə problem yoxdur, lakin özünü peşəkar adlandıran KİV bu axının ənənəvi və peşəkar jurnalistikanı sıxışdırmasına imkan yaratmamalıdırlar. Vətəndaş yenə çəkə, göndərə, problemlər haqqında məlumat verə bilər, lakin onun qeyri-peşəkar məhsulu peşəkar saytlarda prioritet hesab edilməməlidir, çiy material birbaşa sayta, portala yerləşdirilməməlidir. Çox şahidi oluruq, bu cür materiallar daha sonra saytdan silinir, təkzib yayımlanır. Lakin bu aralıqda saytın baxış sayı yüksəlir, reklam gəlirləri artır. Təəssüflə deyim ki, gəlirini bu yolla çoxaldan sayt və portalların iş prinsipi məhz budur - əvvəl yayımlamaq, baxış sayını yüksəltmək, əsilsiz olduğu anlaşılandan sonra silmək.

## Təkzib edəcəyi məlumatı dərc edərsə...

Rəqəmsal mediada həvəskar jurnalistlər və ya adi insanlar ani reflekslərlə xəbər yaradırlar. Yolda gördükləri, qarşılaşdıqları, şahid olduqları hadisələri xəbər kimi istehsal edəndə heç bir jurnalistika ölçülərinə əməl etmirlər, heç bir meyar nəzərə alınmır. Bu təbiidir, çünki onlar jurnalist deyillər. Onların xəbər hazırlamaq bacarığı çox vaxt sadəcə informasiya ötürmək xarakteri daşıyır. Bu prosesdə informasiya çirklənə, yön dəyişdirə, əsilsiz ola bilər və hazırlayan həvəskar vətəndaş bunların fərqində olmur.

Rəqəmsal jurnalistikada plagiatlıqla yanaşı, xəbərin dəqiqliyi də problem kimi qalır. Ənənəvi çap jurnalistikasının, habelə ciddi informasiya saytlarının ən mühüm vəzifələrindən biri xəbərlərin əslinin olub-olmamasına əmin olmaqdır. Xəbəri mən-



bədən dəqiqləşdirmək mütləqdir və vacibdir. Jurnalistin əldə etdiyi xəbəri dərhal yazması peşəkar prinsiplərə ziddir. Çünki ertəsi gün o xəbər təkzib oluna bilər və media orqanı üzr istəməli, bəzi hallarda məhkəmədə cavab verməli olur. Yayımına, peşəkarlığına, imzalarına güvənən heç bir mətbu orqan, peşəkar sayt təkzib edəcəyi məlumatı yaymamalıdır.

***Lalə Mehralı***



**Elçin Bayramlı**

# Texnogen eranın virtual dünyada yaşayan qulları

***İnformasiya və kommunikasiya texnologiyalarının, internetin və sosial şəbəkələrin geniş yayılması və imkanlarının artması insanları tədricən virtuallaşdırır, real həyatdan ayırır və bir növ “virtual zombi” vəziyyətinə gətirir. Bu proses artıq o həddə çatıb ki, insanlar demək olar ki, fasiləsiz olaraq bütün sutka ərzində smartfondan, kompüterdən və müxtəlif sosial şəbəkələrdən (əyləncə, vaxt keçirmək, müxtəlif material və müzakirələri izləmək məqsədilə) istifadə edir. Nəticədə insan münasibətləri, ünsiyyət və fəaliyyətlər əsasən virtual mühit üzərində qurulur.***

Bu tendensiya yalnız şəxsi həyat sahələri ilə məhdudlaşmır: maliyyə əməliyyatları, biznes fəaliyyəti, təhsil və digər həyati funksiyalar da getdikcə virtual müstəviyə keçir. Belə bir köç insanları real dünyadan soyudur üz-üzə ünsiyyət, real fəaliyyətlər və təbii əlaqələr zəifləyir. Bunun nəticəsində insanlar virtual dünyada özlərinə ayrıca bir həyat qurur; əlaqələri orada formalaşır, fəaliyyəti orada davam edir. Xüsusilə narahatedici məqamlardan biri odur ki, azyaşlı uşaqlar da bu prosesə sürüklənir. Hər bir uşağın əlində smartfonun olması və onların bütün gün boyunca virtual aləmdə qalması, müxtəlif təsirlərə məruz qalması qaçılmazdır; bu təsirlərin təxminən 80–90%-i çox vaxt mənfi xarakter daşıyır. Nəticələr artıq göz qabağındadır: bəzi sosial şəbəkələr psixoloji narkomaniya xasiyyətini alıb insanlar ora daxil olanda çıxmaqda çətinlik çəkir. Rəngarəng kontent, sonsuz sürüşmə, davamlı bildirişlər və interaktiv mexanizmlər istifadəçini orada daha uzun saxlayır.

Digər tərəfdən, bütün fəaliyyətlərin mobil sistemlərə keçməsi biznes, təhsil, sosial layihələr və s. insanların psixologiyasına mənfi təsir edir. İnsanlar təbiilikdən uzaqlaşır, real həyatdan qaçır, virtual məkanda “qeyri-real” həyat qurur. Bu, həm fərdi, həm də cəmiyyət üçün təhlükəli tendensiyadır. Texnologiyadan yalnız müəyyən limit daxilində və məqsədli şəkildə faydalı işlər üçün istifadə etmək mümkündür. Təəssüf ki, bizim ölkədə həmin vaxt və enerji daha çox mənfi, faydasız istiqamətlərə sərf olunur. Az hissə insanlar texnologiyanı faydalı məqsədlər üçün istifadə edir öyrənir, təhsil alır, biznes qurur. Lakin böyük əksəriyyət, xüsusilə yeniyetmələr, burada məişət həyatı, qossip, əyləncə, qadağan olunmuş materiallar, şantaj, təxribat, qarayaxma və müxtəlif maxinasiyalara vaxt sərf edir. Bu isə virtual mühitdə qeyri-insani və qeyri-hüquqi əməliyyatların, o cümlədən fırıldaqçılıq və zorakılığın artmasına gətirib çıxarır.

Bu təhlükəli tendensiyaya qarşı sistemli tədbirlər görülməlidir. Əsas problemlərdən biri insanların kifayət qədər istirahət və maliyyə imkanlarına malik olmamasıdır: piknikə getmək, təbiətdə vaxt keçirmək, idman yarışlarında və sosial layihələrdə iştirak etmək kimi alternativ məşğuliyyətlər yetərli deyil. Sosial şəbəkələrin təsiri güclü olduğu müddətdə gələcək nəsillər vaxtlarının böyük hissəsini virtual aləmdə keçirəcək, real ünsiyyət və real insan fəaliyyətləri zamanla minimuma enəcək. Bu isə cəmiyyət üçün qorxulu və təhlükəli perspektivdir.

Buna görə də aşağıdakı addımlar zəruridir: mariflənd irmə tədbirləri aparılmalı, insanların ekran vaxtının tənzimlənməsi və rəqəmsal savadlılığın artırılması üçün proqramlar tətbiq edilməlidir; məktəblərdə, ailələrdə və yerli icmalarda alternativ, real həyat fəaliyyətləri təşviq olunmalıdır. Biz düzgün və balanslı cəmiyyət formalaşdırmalıyıq: texnologiyanı vaxtında və öz yerində istifadə etmək, ekran qarşısında keçən müddəti məhdudlaşdırmaq və əsl həyat dəyərlərini qorumaq vacibdir. Əks halda belə bir vəziyyət, ciddi sosial və psixoloji problemlərə gətirib çıxaracaq.

# Fələstinin gələcəyi

## Əsas risklər və mümkün ssenarilər

ANALİZ

***Yaxın Şərqdə baş verən hadisələr, xüsusilə HƏMAS-İsrail savaşı bölgənin gələcəyini böyük sual altına qoyub. Dünyanın əksər ölkələri, hətta İsrailin dostları iki dövlət prinsipinə üstünlük verirlər. Bölgənin gələcəyi üçün bir çox faktoru nəzərə almaq lazım gəldikdə, indiki vəziyyəti mütləq nəzərə almaq gərəkdir. Bu gün Fələstin iqtisadiyyatı çox ciddi və ağır zərbə alıb. Qəzza Zolağında demək olar ki, bütün əhali yoxsulluq səviyyəsindədir və Qərb Sahilində də rifah səviyyəsində böyük düşük var.***



Regionda və Fələstin torpaqlarında siyasi və inzibati parçalanma mövcuddur: Qəzzada hərəkətdə olan silahlı qruplar, Qərb Sahilində isə başqa güclər, bu da vahid və təsirli Fələstin rəhbərliyinin formalaşmasını çətinləşdirir. Region üzrə geosiyasi mühit dəyişir, ərəb ölkələri ilə əlaqələr, ABŞ-Rusiya-Çin rolu, İranın dəstəyi kimi faktorlar Fələstinin vəziyyətinə təsir edir. Beynəlxalq hüquq və status məsələləri ciddi risk altındadır. BMT-nin baş katibi Antunio Guterreşin sözlərinə görə, Fələstin "məhv olmaqla üz-üzədir", xüsusilə İsrailin İordan çayının qərb sahilinin bir hissəsini ilhaq etməsi ehtimalı nəzərdə tutulur.

Ssenarilər hazırkı meyllərə və risklərə əsaslanaraq mümkündür. İki dövlətli həll yolu. Bu, uzun illər ərzində qəbul edilən modeldir ki, İsrail və Fələstin dövləti sülh



içində yanaşı yaşayır. Lakin hazırda torpaq parçalanmaları, məskunlaşmalar, təhlükəsizlik məsələləri bu ssenarini çətinləşdirir.

Bir dövlətli həll və ya "de facto" birləşmə. Bəzi analitiklər hesab edir ki, iki dövlətli modelin reallaşma ehtimalı azalır və zamanla Fələstin torpaqları və ya İordan çayının qərb sahili + Qəzza kimi ərazilər İsrailin daha çox nəzarətinə keçə bilər – bu isə bir dövlətli vəziyyətə gətirib çıxara bilər. Status-kvo və uzunmüddətli donmuş münaqişə ssenarisi isə heç biri tərəf üçün qənaətbəxş olmayaraq, münaqişə uzun illər ərzində statik şəkildə davam edə bilər. Məskunlaşmalar artar, gərginliklər qalıcı olar, Fələstin öz dövləti statusunu qazanmaz.

Yeni regional düzən və Fələstin üçün alternativ model variant isə region ölkələrinin rolunu artıra bilər. Fələstin üçün fərqli idarəçilik modelləri təklif olunar. Məsələn, muxtar zonalar və ya "əmirlik" tipli quruluşlar. Məsələn, analitiklər "Fələstin Əmirlikləri" modeli üzərindən düşünürlər.

Bölgədə İqtisadi çətinliklər yaşanır. Fələstin ərazilərində uzun müddətli iqtisadi böhran riski yüksəkdir. Fəth Hərəkatı ilə digər qüvvələr arasında birlik zəifdir. Təhlükəsizlik və İsrailin apardığı məskunlaşma siyasəti narahatlıqları davamlı şəkildə artırır. Ərəb-İsrail normallaşması, İran və digər regional qüvvələrin müdaxiləsi Fələstinin mövqeyini dəyişə bilər. Fələstin əhalisinin yaşadığı humanitar böhran beynəlxalq etiraza səbəb olur. Fikrimizcə, yaxın 5-10 il ərzində Fələstin tam müstəqil və suveren bir dövlət olaraq dünyada tanınmayacaq, lakin bəzi muxtar statuslar əldə edə bilər. Qəzza və Qərb Sahili üçün konkret idarə formaları və beynəlxalq dəstəklə yenidənqurma proqramları görülə bilər. Lakin iki dövlətli həllin tam şəkildə tətbiqi yaxın gələcəkdə çox çətin görünür.

Gaza Zolağında çox ciddi humanitar fəlakət var. Aclıq, mal-qida çatışmazlığı, səhiyyə sisteminin çöküşü və çoxsaylı məcburi köçlər müşahidə edilir. Məsələn, BMT xəbər verir ki, "yüksək səviyyədə aclıq" riski mövcuddur. Birləşmiş Millətlər Təşkilatı tərəfindən hazırlanan bir qiymətləndirmə göstərir ki, Gəzzada 10 il ərzində təxminən 53.2 milyard ABŞ dolları yenidənqurma, infrastruktur və iqtisadi/sosial bərpa üçün tələb olunur. Gəzza zolağında işsizlik artıb və istehsal kəskin düşüb. Bəzi mənbələr qeyd edir ki, işsizlik təxminən 80 %-ə yaxınlaşıb. İşgüzar fəaliyyət, sərmayə qoyuluşu və ticarət olanaklarında ciddi məhdudlaşma var.

Münaqişə, mühasirə şəraiti və hərbi əməliyyatlar infrastrukturu dağıdıb, iqtisadi fəaliyyətləri məhdudlaşdırıb. Uzun müddətli nəticə belədir ki, rifah səviyyəsinin azalması, yoxsulluq artması, gələcəkdə gənc nəsillər üçün imkanların daralmasına səbəb olacaq. Misir münaqişənin qonşu ölkəsi kimi birbaşa narahatdır, öz sərhədləri, təhlükəsizlik və qaçqın axını riski ilə üz-üzədir. Misir tərəfindən irəli sürülən bir plan var. Gəzza üçün yenidənqurma planı hazırlanıb və prinsip etibarilə HƏMAS hərəkatının idarə olunmamasını şərt kimi qoyur. Misirin bir sıra sülh danışıqları və sərhəd məsələləri üzrə vasitəçilik rolu var.

Səudiyyə Ərəbistanı regionda daha balanslı diplomatik mövqe tutmağa çalışır və Fələstin məsələsində strateji bir oyunçu olaraq görülür. Məsələn, Səudiyyə rəhbərlik səviyyəsində "Fələstin dövlətinin olması" şərtini vurğulayıb və İsrail ilə münasibətlərdə bu faktoru vacibliyini qeyd edib. Türkiyə də regionda diplomatiya və iqtisadi əlaqələr baxımından aktivdir. Misir-Türkiyə əməkdaşlığı da yenidən canlanmaqdadır. Türkiyə Fələstin məsələsində ictimaiyyətə yönəlmiş mövqe tutub və diplomatik vasitəçilik baxımından özünü göstərmək istəyir.

Region ölkələri arasında Fələstin məsələsində fərqli strategiyalar mövcuddur: bəziləri "yenidənqurma + müstəqil Fələstin dövləti" modelinə üstünlük verir, digərləri isə daha çox regional təhlükəsizlik və geosiyasi maraqları nəzərdə tutur. Region dövlətlərinin rolu həm sülh prosesində, həm də təhlükəsizlik mexanizmlərində münaqişənin gələcəyi üçün vacibdir. Lakin bu dövlətlər də müəyyən çatışmazlıqlarla üz-üzədir, İsrail ilə münasibətlər, ABŞ-la əməkdaşlıq, İran və digər regional aktorlarla balans, həmçinin daxili ictimai rəyə uyğun hərəkət etmək kimi.

### Proqnozlardan nə gözləmək olar?

Əgər region ölkələri sabit mexanizmlərlə iştirak edə bilsələr, Fələstin üçün iqtisadi bərpa və infrastrukturun yenidən qurulması mümkün ola bilər. Məsələn, Misirin 53 milyard ABŞ dolları səviyyəsində yenidənqurma planı var. Diplomatik səviyyədə iki dövlətli həllin reallaşması üçün region ölkələrinin dəstəyi vacib qalacaq. Türkiyə, Səudiyyə, Misir bu baxımdan kritik tərəfdir. Amma müharibə davam edərsə və humanitar vəziyyət daha da pisləşərsə, bu həm Fələstin xalqı üçün, həm region üçün ciddi təhlükə yarada bilər. Struktur bərpanın ləng olması, iqtisadi çöküş və geosiyasi təzyiqlər "qara ssenari"yə səbəb ola bilər. Region ölkələrinin maraqları arasında balans tapmaq vacibdir: Fələstin məsələsində ədalət, suverenlik və təhlükəsizlik tələbləri qarşısında geosiyasi və ekonomik maraqlar da dayanır.

### Tramp Fələstin dövlətinin tanınacağına inanır

ABŞ prezidenti Donald Tramp İsrailin baş naziri Benyamin Netanyahunun son nəticədə Fələstin dövlətini tanımağa razılaşacağına əminliyini ifadə edib. O, bu fikri CBS News-a müsahibəsində bildirib. Netanyahunu razı sala biləcəyi ilə bağlı sualı cavablandıran Tramp deyib ki, o, "müharibə dövrünün baş naziri" və "çox istedadlı insan" adlandırdığı İsrail baş naziri ilə "yaxşı" münasibətdədir. "Mən onunla çox yaxşı işlədim. Onu bu və ya digər şəkildə bir az itələməli oldum", - o əlavə edib.

ABŞ prezidenti Donald Tramp CBS News telekanalına müsahibəsində Fələstin HƏMAS hərəkatının lazım gələrsə məhv ediləcəyini bildirib. O əlavə edib ki, hərəkat bundan xəbərdardır. "Onların tərksilah edilməsini istəsəm, onları çox tez tərksilah etməyə məcbur edəcəm. Onlar məhv ediləcəklər. "Onların bundan xəbəri var" deyib.

Oktyabrın 28-i axşam saatlarında İsrail ordusu atəşkəs razılaşmasına baxmayaraq, Qəzzaya bir sıra hava zərbələri endirib. Hava hücumları başlayandan sonra HƏMAS rəhbərliyi atəşkəsə sadiqliyini bəyan edib. Daha sonra Donald Tramp bəyan edib ki, zərbə atəşkəsə təsir etməyəcək. O, həmçinin əlavə edib ki, İsrailin anklavı vurmaq hüququ var və Fələstin hərəkatı "ləyaqətli davranmalı olacaq".

### Qəzzada sülh niyə bu qədər kövrəkdir?

Qəzza zolağında döyüşlər yenidən başlayıb, lakin ABŞ prezidenti Donald Tramp davamlı atəşkəsə ümid edir. Niyə bu regionda sülh bu qədər kövrəkdir və ekspertlərin proqnozları necədir? Qəzza zolağında elan edilən atəşkəs, şübhəsiz ki, Yaxın Şərq sülh prosesində irəliyə doğru mühüm addımdır.

"Mənim başa düşdüyüm odur ki, onlar bir İsrail əsgərini öldürdülər. Bu barədə indicə eşitdim, bu yaxınlarda. Onlar bir İsrail əsgərini öldürdülər. Buna görə də israillilər cavab verdilər. Və onlar cavab verməli oldular. Belə olanda onlar cavab verməlidirlər", - Tramp deyib.

Jurnalistlər ABŞ prezidentindən Qəzzada kövrək atəşkəsə nəyinsə təhlükə olub-olmadığını soruşduqda, o, belə bir şeyin olmayacağına inandırıb. "Xeyr. Bunu heç nə təhlükə altına salmayacaq. Biz başa düşməliyik: Həmas Yaxın Şərqdə sülhün çox kiçik bir hissəsidir. Və onlar özlərini layiqli aparmalıdırlar... Onlar özlərini yaxşı aparacaqlarını söy-




lədilər. Və əgər yaxşı davransalar, hər şey yaxşı olacaq. Amma etməsələr, məhv olacaqlar", - deyə o, cavab verib. Və o, HƏMAS-ın məhv edilməsinin həqiqətən də mümkün olduğu fikrini təkrarlayıb və qeyd edib ki, belə bir rolu öz üzərinə götürmək istəyən bir çox dövlət var. Həqiqətən də, Tramp tərəflərin İsrail qoşunlarının razılaşdırılmış xəttə çəkilmələri, girovların mübadiləsi və sonradan zonanın demilitarizasiyası şərti ilə yenilənmiş atəşkəsin birinci mərhələsi üzrə razılığa gəldiyi plan təqdim edib. Və tərəflər atəşkəsi ən azı bir neçə həftə saxlaya bilsəydilər, danışıqlara mərhələli keçid və yenidənqurma mümkün olardı. Bununla belə, Qəzzada reallıqlar hazırda mürəkkəb və çoxqatlıdır: tərəflərin maraqları qarışıqdır, kütləvi dağıntılar və humanitar böhran var. Əgər pozuntular artarsa, Qəzzada sülh yenidən eskalasiyadan əvvəl qısa müddətli fasiləyə çevrilmək riski daşıyır.

**V.VƏLİYEV**





# Maska effekti - insanlar niyə sosial şəbəkədə özünü olduğundan fərqli göstərir?





***İnsan təbiətcə qəbul olunmaq, təsdiq olunmaq və sevilmək istəyir. Bu ehtiyac qədim dövrdə həyat üçün zəruri idi — insan tək yaşaya bilmirdi, qəbilədən qovulan insan fiziki olaraq təhlükəyə düşürdü. Bu bioloji yaddaş psixoloji olaraq bu gün də yaşayır. Sosial şəbəkələr isə bu qədim ehtiyacın rəqəmsal qarşılığı oldu. Burda insan özünü göstərə, qiymətləndirilə, təsdiq oluna bilər. Amma təqdim etdiyi şəxsiyyət daha ideal formaya salınmış obraz olur. Yəni: İnsan sosial məkanda sağ qalmaq üçün maska yaradır – bu dəfə fiziki deyil, emosional.***



### Maska effekti nədir və necə yaranır?

Maska Effekti insanın real mənliyi ilə sosial məkanda göstərdiyi ideal mənlik arasında fərq yarandığı anda baş verir.

Bu proses üç mərhələdə formalaşır:

**1.** Özünü olduğundan yaxşı göstərmək istəyi

**2.** İnsanların reaksiyasına uyğun obrazın möhkəmlənməsi

**3.** Obrazın real mənlikdən daha güclü hala gəlməsi

Bu zaman insan yavaş-yavaş: Özünü deyil, özünün yaratdığı versiyanı yaşayır.

### Sosial təsdiqin beyin kimyasına təsiri

Bəyənilər (like), paylaşım sayları və baxış göstəriciləri dopamin ifrazını artırır. Dopamin isə beynin "mükafat sistemi"nin əsas kimyəvi maddəsidir. Bu o deməkdir ki, İnsan sosial təsdiq alanda özünü yaxşı hiss edir, təsdiq az olanda özünü dəyərsiz hiss edir.

Beləliklə, insan daxili dəyər meyarını itirir və kənardan gələn dəyərə bağlanır.

Dəyər artıq "mən kiməm?" ilə deyil — "mənə neçə nəfər baxdı?" ilə ölçülür.

### Həqiqi mən və virtual mən: psixoloji qarşıdurma

Həqiqi mən — insanın zəiflikləri, qorxuları, qüsurları, yorğunluqları olan tərəfidir. Virtual mən isə — güclü, gözəl, uğurlu, şən və daim nəzarətdə görünən tərəfidir. Bu iki mənlik arasındakı məsafə böyüdükcə: İnsan daxilən parçalanır, özünü olduğundan daha pis qəbul etməyə başlayır, psixoloji yorğunluq dərinləşir, psixologiyada buna kimliyin parçalanma riski deyilir.

### Sosial müqayisə mexanizmi: niyə başqalarının həyatı daha yaxşı görünür?

Sosial şəbəkələrdə insanlar yalnız: xoşbəxt anları, estetik görüntüləri,

uğurları paylaşırlar.

Heç kim ağladığı anı, mübarizəsini, travmasını, uğursuzluğunu nümayiş etdirmir. Bu zaman insan başqalarının ən yaxşı anları ilə öz adi həyatını müqayisə edir. Beləliklə: "Mən kifayət qədər yaxşı deyiləm" düşüncəsi formalaşır. Bu düşüncə isə özünəinamı zəiflədir.



### Bədənə münasibətin dəyişməsi və estetik təzyiq

Filtrlər, tətbiqlər və foto redaktə alətləri real bədən anlayışını təhrif edir. Artıq gözəllik təbii olan deyil, rəqəmsal olaraq düzəldilmiş hala çevrilir. Bu proses: Öz bədənindən narazılıq yaradır, özünə münasibəti pozur, öz-özünə qarşı amansız tənqid gücləndirir. Bədən artıq insanın varlığını ifadə etmir — o, sosial təqdimat alətinə çevrilir.

### Dünya nəzəriyyəsinə istinad

Erving Goffman sosial həyatı səhnəyə, insanları isə aktyorlara bənzədirdi. Onun fikrinə görə: "İnsanlar kim olduqlarını deyil, kim görünməli olduqlarını oynayırlar". Sosial şəbəkələr isə bu səhnəni maksimum genişləndirdi və daimi etdi. İnsan artıq səhnədən düşə bilmir. Çünki ekran — daimi tamaşa meydanıdır.

### Problemin dərinləşməsinin səbəbləri

Maska Effektinin güclənməsi yalnız sosial şəbəkələrdən istifadənin çoxluğu ilə bağlı deyil. Burada daha dərin psixoloji amillər rol oynayır: Şəxsin özünüdərk səviyyəsinin zəif olması, daxili dəyər sisteminin formalaşmaması ,"Başqalarının təsdiqinə bağlı həyat" modeli, nəticə yönümlü, prosesdən uzaqlaşmış düşüncə tərzi, insan özünü tanımadıqca, özünü başqalarına göstərmək ehtiyacı artır. Yəni, insan daxili boşluğu virtual məkanda görünmək ilə doldurmağa çalışır. Bu da maskanın çıxmağa qoyulmamasına səbəb olur.

***Günel Fərzəliyeva***

ARAŞDIRMA

# AXCP və Müsavatın fəaliyyətlərinin dayandırılması ictimai tələbdir



*Qanun Ramiz Mehdiyevin dəstəsinin üzvlərindən olan Əli Kərimlinin, İsa Qəmbərin və Cəmil Həsənlinin həbs edilməsini zərurətə çevirir*

Dəfələrlə yazmışıq, həm də bildirmişik ki, dövlətin və xalqın maraqlarına zidd fəaliyyət göstərən AXCP və Müsavat partiyalarının dövlət qeydiyyatları ləğv edilməlidir. Səbəb göstərib, faktlar ortaya qoymuşuq. Təəssüflər olsun sözügedən partiyalara qarşı hələ də qanuna uyğun addımlar atılmır, humanistlik göstərilir. Bundan ruhlanan Müsavat, AXCP, eləcə də dövlət qeydiyyatı olmadan fəaliyyət göstərən Milli Şura yeni-yeni hüquqpozmalara yol verir, milli və dövlətçilik maraqlarına zərbə vurmağa hesablanan əməllər törədirlər. 2003-cü ilin 15-16 oktyabr hadisələri zamanı AXCP və Müsavat iğtişaşlar, eləcə də qarşıdurmalarla ölkəmizin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, hakimiyyətin zorla ələ keçirilməsinə və saxlanılmasına cəhd göstərilmişdir. Eyni iyrənc hərəkətlər 2005-ci ilin noyabr, 2013-cü il oktyabr və 2019-cu ilin oktyabrın 19-da təkrarlanmışdır. Daha bir sübut, AXCP və Müsavat radikal dini cərəyanlara iş birliyinə gedərək azad, demokratik, dünyəvi Azərbaycanı məhv edib, yerində şəriət qaydaları ilə idarə oluna biləcək "səfəvilik" adlı quruluş yaratmaq istəyində olublar. AXCP və Müsavatın fars-molla rejiminin ideya müəllifliyi ilə yaradılan "Müsəlman Birliyi Hərəkatı" ilə geniş əməkdaşlıq etməsi, tez-tez hərəkatın rəhbəri Taleh Bağırzadə ilə görüşlər keçirib, müzakirələr aparması Azərbaycan cəmiyyətində hər kəsin bildiyi faktdır. 2019-cu ilin fevralında müttəfiqlərin görüşündən əks olunan səs yazıları da üzə çıxmışdı. Səs yazısından məlum olur ki, T.Bağırzadə Əli Kərimli və İsa Qəmbərdən real addımların atılmasını tələb edir. T.Bağırzadə qeyd etmişdi ki, "Azərbaycanda İran, Livan və digər yerlərlə müqayisədə islamçılıq zəifdir. Ona görə milli kimlik məsələsindən istifadə etməliyik. Müxalifətlə münasibətlərə gəldikdə isə, onlara demişik ki, ayətulla Xamneyi ağamızdır, "qırmızı xətt"imizdir, ona toxunmasınlar".

### AXCP və Müsavat "Siyasi partiyalar haqqında" qanunu kobud şəkildə pozurlar

Taleh Bağırzadə AXCP, Müsavat və "Milli Şura" ilə əlaqələrindən danışarkən bildirir ki, hər tərəf öz maraqlarını güdür: "Biz onlara deməmişik ki, demokratiq, filanıq, Qərbə meyilliyik. Əsla. Bunu bilirlər və şərtlərimizi qəbul ediblər. Mediaya çıxışımız zəif idi, bizə imkanlar yaradıblar. Tribuna veriblər ki, sözümüzü deyək. Nəyi pisdir?! İstifadə edin onlardan, yararlanın".

Az sonra AXCP və Müsavat yetkililəri üzə çıxan səs yazısını və fars-molla rejimi ilə əlaqələrini etiraf etməyə məcbur olmuşdular. Ə.Kərimlinin əsas trollarından olan, AXCP İdarə Heyətinin üzvü Natiq Ədilov sosial şəbəkə hesabında qeyd etmişdir ki, "Müsəlman Birliyi Hərəkatı" ilə əlaqələrinin gizli deyil: "Bəyəm bu sirr, yaxud gizli saxlanılan xəbərdir ki? Məsələ budur ki, şiə əqidəsinə görə hər bir ibadət əhli (ciddi dini həyat yaşayanlar) gündəlik fəaliyyətini, rituallarını tənzimləmək üçün özünə mərceyi-təqlid seçməyə məhkumdur. Mərceyi-təqlid o şəxsdir ki, mömin hansısa dini məsələdə ixtilafa düşəndə, hansısa sualın cavabını tapmayanda baxır ona və ondan örnək alır, onun cavabını özü üçün əsas seçir. Təkcə Tale Bağırzadə deyil, ölkədə şiə əqidəsinin praktik daşıyıcılarının hamısının mərceyi təqlidi var və bu adi haldır".

T.Bağırzadənin dediyinə görə, AXCP, Müsavat və s. müxalifət partiyaları ilə "Müsəlman Birliyi Hərəkatı"nın müttəfiq olması sadəcə, üzdədir: "Əslində onlar bizə yox, biz onlara gərəyik. Bundan da yararlanırıq və gələcəkdə də istifadə etməliyik. Azərbaycanda müsəlman dövləti qurmalıyıq, bölücülüyə son qoymalıyıq. İdeologiyamız milli və İslami kimlikdir. Allahın köməyi ilə güclənəndən sonra burada dini, Şəriət əsasında, səfəvi dövləti qurmalıyıq. Şah İsmayıl Xətai də türkçü olmayıb, türk olmayıb. Türkçülük 19-ci əsrdə yaranıb. Biz də səfəvilərin "qızılbaşlıq" ideologiyasını bərpa etməliyik".

Bu və digər faktlar təsdiq edir ki, AXCP, Müsavat və Milli Şura rəhbərləri Azərbaycan dövlətçiliyini sarsıtmaq, hakimiyyəti çıxılmaz duruma salmaq üçün hər cür çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinməyiblər. T.Bağırzadə kimi fars-molla rejiminin mollalarının əlini öpən məxluqla iş birliyinə getməklə Azərbaycanda konstitusion quruluşu dəyişmək və ölkəni orta əsrlərə sürükləmək məqsədi daşıyıblar.

Məsələnin səthi araşdırılması və bir neçə faktın ortaya qoyulması kifayətdir ki, AXCP və Müsavatın dövlət qeydiyyatlarının ləğv edilməsi üçün əsaslar yaransın. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunununa görə, siyasi partiyaların aşağıdakı məqsədlə təsis edilməsinə və fəaliyyətinə yol verilmir:

- Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi, ərazi bütövlüyünün parçalanması, hakimiyyətin zorla ələ keçirilməsi və ya saxlanılması, kütləvi iğtişaşlara, terrorçuluğa açıq çağırışlar edilməsi;
- terrorçuluğun, dini ekstremizmin, zorakılığın və qəddarlığın, habelə irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkiliyin, həmçinin sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlərin təbliği;
- irqi, dini və ya etnik düşmənçiliyin salınması.

### Əli Kərimli və İsa Qəmbərin Ramiz Mehdiyevin dəstəsinin fəal üzvlərindən olduqları sübuta yetirilir

Bir məsələni də vurğulamaq lazımdır ki, AXCP və Müsavat funksionerləri Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin dəstəsinin fəal üzvlərindən olmaqla ölkədə dövlət çevrilişinin həyata keçirilməsində də iştirak ediblər. Bu isə AXCP və Müsavatın dövlət qeydiyyatlarının ləğv olunması, eləcə də Əli Kərimlinin və İsa Qəmbərin həbs olunmaları üçün növbəti əsaslı faktdır. Tərəflər nə qədər sakit formada əməkdaşlıq etməyə çalışsalar da nəhayətdə ifşa olundular. Məlum oldu ki, R.Mehdiyev və dəstəsi AXCP və Müsavata 18 milyon manat maliyyə yardımı göstərib. Eyni zamanda o fakt da üzə çıxdı ki, R.Mehdiyev 50 nəfərin iştirakı ilə Dövlət Şurası yaratmaq xülyasında olub. Hansı ki, həmin ideya hələ uzun illər öncə İsa Qəmbər və ətrafı tərəfindən irəli sürülmüşdü. İndi aydın olur ki, R.Mehdiyev Əli Kərimlinin və İsa Qəmbərin fərsiz və bacarıqsız olduqlarını anladığından bu dəfə özü həmin separatçı ideyanı reallaşdırmaq xülyasında olub. Təbii ki, bu zaman keçmiş nazirlərin, icra hakimiyyətlərinin başçılarının, indiki və keçmiş deputatların, eləcə də İsa Qəmbərin və Əli Kərimlinin dəstəyinə arxalanıb. İsa Qəmbərin ötən həftə qeyd etdikləri onların R.Mehdiyevin bulağından su içdiklərini təsdiqləyir. Müsavat partiyası məsələ ilə bağlı paylaşımında vurğulayır ki, Ramiz Mehdiyevin ideyasına oxşar model hələ 2003-cü ildə Etibar Məmmədov tərəfindən İsa Qəmbərə təklif olunub: "1. 2003-cü il oktyabr ayında – prezident seçkilərinə 7–8 gün qalmış – Etibar Məmmədov öz namizədliyini geri çəkməsi və mənim namizədliyimi dəstəkləməsi müqabilində məndən, seçiləcəyim təqdirdə:

a) Baş nazir vəzifəsinin ona verilməsini,

b) Seçkidən dərhal sonra Dövlət Şurasının yaradılmasını,

c) onun həmin Şuraya sədr təyin edilməsini,

d) Xarici İşlər Nazirliyinin və bütün güc strukturlarının Dövlət Şurasının sədrinə – yəni ona – tabe etdirilməsini və s. tələb etdi.

Mən ona bildirdim ki, seçiləcəyim təqdirdə onun baş nazir təyin olunmasını məqbul sayıram, lakin digər tələblər nə məntiqə, nə də Konstitusiyaya uyğundur.

2. Guya mən bu təkliflərin hamısını qəbul edib sonradan fikrimi dəyişmişəm – bu, həqiqəti əks etdirmir. Mən orada Etibar Məmmədova dedim ki, həddindən artıq çətin şərtlər irəli sürürsünüz, bunların qəbul edilməsi real görünmür. Hər halda, bu məsələləri Müsavat Partiyasının rəhbərliyi və müttəfiqlərimlə müzakirə etdikdən sonra sabah günorta saat 13:00-a qədər cavab verəcəyəm. Ertəsi gün günorta saat birə bir neçə dəqiqə qalmış mən Etibar Məmmədova zəng etdim və onun təkliflərinin məqbul olmadığını bildirdim. Məsələnin mahiyyəti qısaca olaraq budur".

Əli Kərimlinin və İsa Qəmbərin pozucu dairələrlə əlaqələri ilə yanaşı cəmiyyətdə çaşqınlıq yaratmaq üçün dezinformasiyalar da yaymaları onların Azərbaycanın uğurlarının düşmən kəsildiklərini təsdiqləyir. Fikir verin, 44 günlük müharibədən əvvəl AXCP sədri Əli Kərimli sosial media üzərindən "Azərbaycan ordusu hərbi əməliyyat aparmağa qadir deyil" deyə sayıqlayırdı, 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində, 2023-cü ilin 19 sentyabr antiterror əməliyyatları zamanı və Zəngəzur dəhlizi ilə bağlı proseslərdə milli birliyi pozmağa, beynəlxalq təzyiq mexanizmlərinə arqument verməyə çalışması, "5-ci kolona" "novarçılar", "feministlər" kimi qrupların da aktiv qoşulması və sair separatçı fikirlər, eləcə də əməllər dağıdıcı ünsürlərin Azərbaycan dövlətçiliyinə qarşı çıxdıqlarını göstərir. Bununla yanaşı dəfələrlə Ə.Kərimli Vətən Müharibəsində əldə olunan parlaq hərbi, siyasi, diplomatik qələbələrimizə kölgə salan yala, böhtan xarakterli fikirlər səsləndirmişdir. Bununla yanaşı "Yurd" şefi açıq şəkildə Ermənistandakı revanşistlərlə eyni mövqedən çıxış etdiyini nümayiş etdirmişdir.

### Dövlət qeydiyyatı olmayan Milli Şura hansı əsasla fəaliyyət göstərir

Göründüyü kimi, qanun birmənalı şəkildə AXCP və Müsavatın qanuna zidd fəaliyyət göstərdiyini nümayiş etdirir. Bu isə həmin partiyaların dövlət qeydiyyatlarının ləğv edilməsini tələb edir. Digə diqqətçəkən məqam ondan ibarətdi ki, Əli Kərimli əksər hallarda Milli Şuranın adından çıxış edir, bəyanatlar verir və aksiyaların keçirilməsi ilə bağlı çağırışlar edir. Bu birbaşa qanunlrara qarşı çıxmaq deməkdir. Çünki "Siyasi partiyalar haqqında" qanuna görə, siyasi partiyaların, təşkilatların, qrumların dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsini qadağan edir. Qanunda əks olunan müddüalara əsasən siyasi partiyanın bütün xalqın adından danışmaq və bütün xalqın adından müraciət etmək hüququ yoxdur. Siyasi partiyalar öz hüquqlarından sui-istifadə etməməlidir.Siyasi partiyaya üzv olmaq kişi və qadınlar üçün eyni şərtlərlə mümkün olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır. Siyasi partiyanın Nizamnaməsi həmin partiyanın fəaliyyətində əlilliyi olan şəxslərin iştirakını məhdudlaşdırmamalıdır.Siyasi partiyanın fəaliyyətinin dayandırıldığı dövrdə və ya ləğvinin dövlət qeydiyyatına alındığı halda onun hər hansı formada fəaliyyət göstərməsi (bu Qanunla müəyyən edilmiş hərəkətlər istisna olmaqla), o cümlədən partiya orqanlarının (struktur qurumlarının) və üzvlərinin siyasi partiyanın adından çıxış etməsi və ya fəaliyyət göstərməsi, toplantıların keçirilməsi, maliyyə əməliyyatlarının aparılması, yaxud onun fəaliyyətinin qanunsuz təşkilində və ya işində iştirak qadağandır. Siyasi partiyanın səlahiyyət müddəti bitmiş orqanları (struktur qurumları) tərəfindən partiyanın fəaliyyəti ilə əlaqədar hər hansı hərəkətlərin edilməsi, o cümlədən qərarların qəbul edilməsi və ya sənədlərin imzalanması da qadağan edilir.

Başqa bir məqam ondan ibarətdir ki, Əli Kərimli açıq şəkildə cəmiyyətə və qanunlara meydan oxuyur. İstənilən vaxt partiya üzvlərini partiyadan xaric edir, xoş gəlmədiyi üzvlərə qarşı hörmətsizlik göstərir, xaricdən maliyyə yardımları almaqla özünü islaholunmaz küçə usağı kimi aparır. Halbuki, siyasi partiyanın məqsədləri Konstitusiyaya zidd olduqda, qanunsuz maliyyə yardımları aldıqda, maliyyə hesabatlarını təqdim etmədikdə və digər qanunsuz hərəkətlərə görə, siyasi partiyanın fəaliyyəti dayandırıla və dövlət qeydiyyatı ləğv oluna bilər. Nəzərə almaq lazımdır ki, AXCP xaricdən maliyyə yardımları alır, bu günə qədər müvafiq dövlət orqanlarına maliyyə hesabatları təqdim etmir. Bütün bunlar əsas verir ki, AXCP , eləcə də yuxarıda qeyd etdiyim faktlara görə, Müsavatın fəaliyyəti dayandırılsın, dövlət qeydiyyatı olmadan Milli Şuranın adından çıxış etdiklərinə görə, Cəmil Həsənli və Əli Kərimli, eləcə də İsa Qəmbər həbs olunsunlar. Bu, sadəcə qanunun tələbi deyil, həm də cəmiyyətin istəyi və tələbidir.

**İLHAM ƏLİYEV**



# İran nüvə silahını yaratmaq üzrədir: Qərbin bunun qarşısını ala biləcək vasitələri qaldımı?

***İran nüvə proqramı ilə bağlı danışıqlar aparmaq üçün xaricdən dəvət aldığını açıqlayıb. Tehran hələ cavab verməyib, lakin ABŞ və İsrail tərəfindən hücuma məruz qalan bütün obyektləri bərpa edəcəyini bildirib. Ağ Ev öz növbəsində İrana təzyiq göstərilməsi məsələsini müzakirə etmək üçün Maliyyə Nazirinin müavini Con Herlini İsrail, BƏƏ, Türkiyə və Livana göndərib. Dəyişən Yaxın Şərq siyasi mənzərəsi İslam Respublikasına nüvə proqramına necə təsir edəcək? Vəziyyəti nəzərdən keçirək.***

İran Prezident Administrasiyasının mətbuat katibi Fatimə Mohaceraninin sözlərinə görə, məktub Oman vasitəsilə ötürülüb. “Mesajların mahiyyəti və məzmunu haqqında ətraflı məlumat daha sonra veriləcək”,- “İran International” yazır. İraq xəbər agentliyi Baghdad Al-Youm-un Tehrandakı diplomatik mənbələrə istinadən verdiyi məlumata görə, Qərb dövlətləri tərəfindən Oman vasitəsilə Tehrana çatdırılan mesajlar Vaşinqtonun İslam Respublikası ilə nüvə danışıqlarını bərpa etməyə hazır olduğunu və İranla yeni bir razılaşma əldə etmək əzmini ifadə edir.

Şənbə günü Manama Dialoqu konfransında çıxış edən Omanın xarici işlər naziri Bədr əl-Busaidi İran və ABŞ arasında danışıqların bərpasına ümid etdiyini bildirib. Qətərin xarici işlər naziri Məhəmməd əl-Tani bildirib ki, Doha hər iki tərəfi yeni bir razılaşmaya qaytarmaq üçün çalışır. “Biz regionumuza, İrana və ABŞ-a fayda verəcək bir razılaşmaya gələ bilərik. İran bizim qonşumuzdur; onun sabitliyi lüks deyil, zərurətdir”,- deyə o bildirib. Reuters agentliyinin məlumatına görə, İran prezidenti Məsud Pezeşkian öz növbəsində ölkənin ABŞ və İsrail tərəfindən hücuma məruz qalan nüvə obyektlərininin zərər görmüş hissələrinin bərpa edəcəyini bildirib. “Elm alimlərimizin zehnində yaşayır. Binaların və fabriklərin dağıdılması bizim üçün problem yaratmayacaq; biz onları daha böyük güclə yenidən quracağıq”,- deyə o bildirib.

Bu arada, ABŞ Maliyyə Nazirliyinin Terrorizm və Maliyyə Kəşfiyyatı üzrə müavini Con Herli cümə günü İrana təzyiq məsələsini müzakirə etmək üçün İsrail, BƏƏ, Türkiyə və Livana səfərləri əhatə edəcək səfərə başlayıb.

“Tramp İranın qeyri-sabitləşdirici və terrorçu hərəkətlərinin davamlı və əlaqələndirilmiş təzyiqlə qarşılanmalı olduğunu açıq şəkildə bildirdi. Tehranın və onun əlaltılarının beynəlxalq sanksiyalardan yayınmaq, zorakılığı maliyyələşdirmək və regionda sabitliyi pozmaq üçün etibar etdikləri maliyyə mənbələrinə çıxışının qarşısını almaq səylərini müzakirə etmək üçün tərəfdaşlarımızla görüşməyi səbirsizliklə gözləyirəm”, - deyə o bildirib.

Tramp ABŞ-ı İranla iri dövlətlər arasında 2015-ci ildə imzalanmış nüvə sazişindən çıxardı. Bu saziş sanksiyaların yüngülləşdirilməsi müqabilində Tehranın uran zənginləşdirilməsini məhdudlaşdırırdı. BMT daha sonra İrana qarşı silah embarqosunu və digər sanksiyaları bərpa etdi.

2025-ci ilin iyun ayında İsrail gizli hərbi nüvə proqramı həyata keçirməkdə ittiham edərək İrana qarşı əməliyyata başladı. Hava bombardmanları və təxribat reydləri nüvə obyektlərini, hərbi komandirləri, tanınmış nüvə fiziklərini və hava bazalarını hədəf aldı.



İran ittihamları rədd etdi və öz raket hücumları ilə cavab verdi. Tərəflər 12 gün ərzində qarşılıqlı hücumlar etdilər və ABŞ da hava müharibəsinə qoşularaq 22 iyun gecəsi İranın nüvə obyektlərinə bomba zərbələri endirdi. Bundan sonra İslam Respublikası 23 iyun axşamı Qətərdəki ABŞ-ın nəzarətində olan Əl-Udeid hava bazasına da raket zərbələri endirdi.

ABŞ prezidenti Donald Tramp daha sonra Yaxın Şərqdə sülh və harmoniyaya gedən yolun artıq mümkün olduğuna ümid etdiyini bildirdi. Lakin iyul ayında Tramp Tehranın nüvə obyektlərini yenidən başlatmağa cəhd edəcəyi təqdirdə İranın nüvə obyektlərinə daha çox zərbə endirəcəyi barədə xəbərdarlıq etdi.

Dünya nüvə rəqabətinin yeni bir dövrünə qədəm qoyur və burada həlledici amillər artıq döyüş başlıqlarının sayı deyil, reaksiya sürəti, zərbə dəqiqliyi və texnoloji üstünlükdür.

Trampın nüvə sınaqlarını bərpa etmək əmri silahlara nəzarət dövrünün sonunu göstərdi. Çin və Rusiya sərt cavab verdilər, amma bir şey aydındır: planet nüvə strategiyasının texnoloji rəqabətə çevrildiyi bir dövrə qədəm qoyur. Yaxın Şərq ölkələrinin gizli nüvə proqramlarının regionu daha da qeyri-sabit etdiyini qeyd edirlər. Lakin analitiklər qeyd edirlər ki, klassik ”qorxu yolu ilə çəkindirmə” artıq işə yaramır.

Ekspertlərin fikrincə, Tehran müdafiə texnologiyaları, kosmik və kiber sistemlər, diplomatik çeviklik və milli muxtariyyətin kombinasiyası olan “ağıllı çəkindirmə” strategiyası qurur. Hesab olunur ki, əgər İran bu kursu davam etdirərsə, xarici təzyiqi və hərbi təhdidləri geosiyasi statusunu gücləndirmək üçün təsir gücünə çevirə biləcək - təkcə regionda deyil, həm də güc balansının yenidən yazıldığı qlobal miqyasda.

İran proqramının həlli üçün danışıqlar və hərtərəfli plana qayıtmaq Tehrana heç bir təzyiqin olmamasını nəzərdə tutur. İran tərəfi əvvəllər bu məsələ ilə bağlı xarici dövlətlərlə bərabər əməkdaşlıq çərçivəsində sənəd imzalamışdı və şərtlərə İslam Respublikasının özünün təhlükəsizlik zəmanətləri də daxil idi.

Bundan əlavə, Qüds Qüvvələrinin komandanı və İranın Yaxın Şərqdə sülh missiyasının memarlarından biri olan general Qasım Süleymani məhz Trampın dövründə öldürüldü. Nəticədə, İranın nüvə silahlarından imtina etməsi halında alternativ təhlükəsizlik sistemi kimi qurulmuş ”Şiə Hilalı”nın bütün arxitekturası dağıldı.

Bundan sonra ABŞ və İsrail İranın nüvə obyektlərinə qarşı yay kampaniyası başlatdı. İsrailin Baş naziri Benyamin Netanyahu hətta Tehrandakı mövcud rejimin devrilməsinə çağırdı. Buna görə də, hazırda İranın təhlükəsizliyi və hətta mövcudluğu keçmişdəkindən daha çox nüvə proqramından asılıdır. Bu fonda İranın birtərəfli şəkildə silahsızlaşdırılması və zənginləşdirilmiş uranı xarici nəzarətə verməsi ehtimalı azdır.

Əksər ekspertlər güman edir ki, Tehran ölkənin istənilən vaxt potensial nüvə dövləti statusundan rəsmi nüvə silahı sahibi statusuna keçməsinə imkan verəcək bütün zəruri texnologiyaları daxildə inkişaf etdirəcək.

Aydındır ki, bombardmanlar İranın nüvə proqramının inkişafını dayandırmayıb, çünki söhbət ölkə daxilində səpələnmiş yüzlərlə obyekt və alimdən gedir. Bundan əlavə, Tehranın nüvə silahı məsələləri üzrə İslamabadla işgüzar münasibətləri var. Buna görə də, İran bu sahədə şərq qonşusundan və bir sıra digər dövlətlərdən əhəmiyyətli yardım ala bilər.

İranın hazırda ABŞ və Aİ ilə sülh danışıqlarından heç bir qazancı yoxdur. Bu danışıqlardan çox güman ki, casusluq, İran proqramının hazırkı vəziyyətini müəyyən etmək və Tehrana köləlik şərtləri və birtərəfli güzəştlər tətbiq etmək üçün istifadə olunacaq. Görünür, İran tərəfi mövqeyini Qərbə aydın şəkildə çatdırmaq üçün özünü rəsmi dialoqla məhdudlaşdıracaq, başqa heç nə edəsi deyil.

ABŞ-a gəldikdə isə, Yaxın Şərq siyasi mənzərəsindəki əhəmiyyətli dəyişikliklər səbəbindən, məsələn, ”Səhra fırtınası” və ya 2003-cü ildə İraqa hücum kimi genişmiqyaslı hərbi əməliyyatlar aparmaq hazırda olduqca çətindir. Vaşinqtonun Fars körfəzi monarxiyalarından eyni aktiv hərbi dəstəyi yoxdur. Lakin İran açıq şəkildə nümayiş etdirib ki, Amerika bazaları onun ballistik raketlərinin məsafəsindədir.

Bundan əlavə, təyyarədaşıyan gəmilərin Fars körfəzinə hərəkəti ABŞ üçün çox ciddi itkilərlə doludur. Təcrid olunmuş zərbələr İranın nüvə proqramını məhv etmək üçün kifayət etməyəcək. Buna görə də, ABŞ-ın, Avropa İttifaqının və İsrailin hazırda Tehrana təzyiq göstərmək üçün hər hansı təsirli vasitəsə sahib olduğunu demək olmaz.

Digər tərəfdən İsraillə raket müharibəsindən sonra İran aktiv şəkildə səsdənsürətli ballistik raketlər və havadan müdafiəə sistemlərini təkmilləşdirir, parallel olaraq Rusiya və Çindən güclü hərbi təyyarələr, radioelektorn mübarizə vasitələri və digər hərbi texnikalar alınmasını artırır.

Son 1-2 ayda Rusiya və Çinin ağır hərbi nəqliyyat təyyarələri davamlı olaraq İran aerdoromlarına enir və onların ən müasir hərbi texnologiyalar gətirdiyinə heç kim şübhə etmir. Son bir ayda Rusiyanın An-124 ”Ruslan” ağır nəqliyyat təyyarələrinin İrana uçuşları artıb. Bu gün də sayca beşinci An-124 təyyarəsi İrana eniş edib.

Son 1 ayda Çinin də ağır nəqliyyat təyyarələri Tehrana enir. Çindən də 4-cü və ya 5-ci nəsil təyyarələr və elektron kəşfiyyat sistemləri alına bilər.

Hərbi ekspertlər İrana növbəti hərbi müdaxilənin hücum edən ölkələr üçün daha ağır nəticələr verəcəyinə şübhə etmirlər. Raket müharibəsində İran raketlərinin vurulmasının mümkün olmadığı aydın oldu. İsrailin hərbi hissələrinə, hərbi hissələrə, aerodrom və digər və nəqliyyat bazalarına və enerji mərkəzlərinə dağıdıcı zərbələr endirildi. Həm də söhbət təkcə İsraildən getmir. Bəzi raketlərin uçuş məsafəsi Avropaya da çatır. Üstəlik region ölkələrindəki ABŞ və NATO hərbi bazaları bu raketlərin hədəfi altındadır. Qətərdəki ABŞ bazasının vurulması da bunu göstərdi. İran yalnız hava qüvvələrində zəif idi və hərbi təyyarələrinin çoxu köhnə modellərdən ibarətdir, lakin indi bunu aradan qaldırmağa başlayıb. Bəzi məlumatlara görə, Rusiyadan 80 ədəd 4++ nəsil Su-35 təyyarəsinin və S-400 havadan müdafiə sistemlərinin alınması nəzərdə tutulur.

Beləliklə, İrana hərbi müdaxilə nüvə tdqiqatlarına səbəb olmadı, əksinə Tehran bu işi daha da sürətləndirdi. Nüvə tədqiqat mərkəzlərini yerin 100-120 metr dərinliyində quran İran onların dağıdılmasının mümkün olmayacağını bilirdi. Hazırda ən qüdrətli bombalar maksimum 50-60 metr dərinliyə qədər dağıdıcılıq törədə bilir.

Artıq hərbi qüdrətini daha sürətlə artıran İranı dayandıracaq siyasi, iqtisadi və hərbi metod qalmayıb. Ekspertlər tezliklə İranın nüvə klubuna daxil olacağını və dünya nüvə 10-luğunu tamamlayacağını ehtimal edirlər. Lakin böyük ehtimalla bu rəsmi elan olunmayacaq, İsrail kimi o da bunu nə təsdiq nə də inkar etməklə kifayətlənəcək.

***Elçin Bayramlı***




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
4 noyabr
2025-ci il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Xaricdə təhsil alan gənclərin geri dönüşü təkcə iqtisadi deyil, həm də strateji sərmayədir"



***"Xaricdə təhsil alan gənclərin Azərbaycana qayıdışını stimullaşdırmaq üçün yanaşma həm strateji, həm də psixoloji aspektləri nəzərə almalıdır. Real olaraq, bu gün dünyanın müxtəlif ölkələrində təhsil alan minlərlə Azərbaycan gənci var və onların əksəriyyəti qayıtmaq üçün yalnız vətən sevgisini deyil, həm də professional inkişaf imkanlarını, sosial təminatı və sabit gələcək perspektivini nəzərə alır. Ona görə də dövlət və özəl sektor birgə şəkildə rəqabətədavamlı və müasir təşviq mexanizmləri formalaşdırmalıdır". Bu sözləri SİA-ya açıqlamasında Doktorant və Magistrlar Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov deyib.***



Onun sözlərinə görə, yüksək ixtisaslı mütəxəssislər üçün əmək bazarında rəqabətqabiliyyətli maaşların və şəffaf karyera inkişaf sisteminin yaradılması vacibdir. Xaricdə təhsil görmüş gənclər müasir iş mədəniyyətinə, məsuliyyətə və innovativ düşüncəyə öyrəşiblər, buna görə də geri döndükdə həmin standartları görmək istəyirlər.

Şəffaf karyera pillələri, meritokratiya, idarəetmədə çeviklik və bürokratik maneələrin aradan qaldırılması onların qərarına ciddi təsir göstərir: "Bununla yanaşı, qayıdan gənclər üçün xüsusi karyera proqramları və mentorluq sistemləri tətbiq oluna bilər. Məsələn, dövlət qurumlarında və milli şirkətlərdə xarici təhsil və təcrübəyə malik mütəxəssislərin tez bir zamanda rəhbər vəzifələrə yüksəlməsini nəzərdə tutan mexanizmlər, həmçinin ali təhsil və tədqiqat sahəsində qrant proqramları onların biliklərini ölkə üçün faydalı istiqamətlərdə tətbiq etməsinə şərait yaradacaqdır.

Digər mühüm istiqamət innovasiya və startap mühitidir. Xaricdə təhsil alan gənclər dünyanın qabaqcıl innovasiya mərkəzlərində təcrübə qazanırlar və onları ölkəyə cəlb etmək üçün startap kapitalı, vergi güzəştləri, biznes-inkubasiya proqramları və beynəlxalq investorlarla əlaqə imkanları yaradılmalıdır. Onların təşəbbüslərini dəstəkləyən hüquqi, maliyyə və texnoloji mühit formalaşdıqda, Azərbaycanda öz gələcəyini qurmaq daha cəlbedici olur. Bütün bunlarla yanaşı, sosial və mənəvi amillər də nəzərə alınmalıdır. Xaricdə yaşayan gənclər çox zaman öz ölkəsinə bağlılığını hiss etsə də, qayıtdıqda sosial mühitin də inkişaf etmiş olmasını gözləyir: təhlükəsiz və açıq cəmiyyət, şəffaf və effektiv idarəetmə, gənclərin qərar qəbulunda real iştirakı kimi faktorlar motivasiyanı gücləndirir.

Gənclərin geri dönüşü yalnız iqtisadi deyil, həm də strateji sərmayədir. Bu proses planlı şəkildə aparıldıqda, xaricdə formalaşmış bilik və təcrübə ölkənin sosial-iqtisadi inkişafına mühüm töhfə verə bilər. Dövlət, özəl sektor və akademik dairələrin birgə səyləri ilə belə kadrlara "qayıtmağa dəyər" mesajı verilməlidir. Bu, Azərbaycanın insan kapitalının gücləndirilməsi və qlobal rəqabətə hazır olması üçün ən effektiv yanaşmadır".

*Ziya Hikmətoğlu*

# "Qarabağ" - "Çelsi" oyununu bu hakim idarə edəcək

***Bakıda "Qarabağ" və İngiltərənin "Çelsi" komandaları arasında keçiriləcək UEFA Çempionlar Liqasının əsas mərhələsinin IV turunun oyununun təyinatları müəyyənləşib. SİA-nın məlumatına görə, görüş Avstriyadan olan hakimlər briqadasına tapşırılıb.***



Baş hakim Sebastian Gishamer olacaq. FIFA referisinə Roland Riedel və Santino Schreiner köməklik göstərəcək. Dördüncü hakim funksiyasını Valter Altmann yerinə yetirəcək. VAR-da Manuel Schuettengruber, AVAR-da Josef Spurny əyləşəcəklər. Qeyd edək ki, "Qarabağ" - "Çelsi" oyunu noyabrın 5-də Tofiq Bəhramov adına Respublika stadionunda, saat 21:45-də start götürəcək.

# Bu tarixdə 4 gün ardıcıl iş olmayacaq

***Bu həftəsonundan etibarən Zəfər Günü ilə əlaqədar ardıcıl 4 gün iş olmayacaq. Belə ki, 8 Noyabr Zəfər Günü, 9 Noyabr isə Dövlət Bayrağı Günüdür.***

Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğun olaraq, hər iki tarix şənbə və bazara təsadüf etdiyi üçün noyabrın 10-11-i də qeyri-iş günü olacaq.

Noyabrın 12-si isə bayramlardan sonra ilk iş günü olacaq. Qeyd edək ki, Konstitusiya Günü (12 Noyabr) və Milli Dirçəliş Günü (17 Noyabr) isə iş günü olan bayram günləridir.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**